RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 157 (9324) 28 İYUL 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyevdən ədalət çağırışı




## Azərbaycan Prezidenti bir daha Ermənistanı sülhə, dünya dövlətlərini isə qlobal problemlərin həllində həmrəyliyə dəvət etdi

**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da yeganə səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Təbii ki, Azərbaycana bu statusu qazandıran İlham Əliyevin qlobal təşəbbüsləri və sözünə sadiqliyidir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

→ 4

## "Minsk qrupu artıq "pensiya"ya çıxıb"

### Mövcud olmayan münaqişə ilə bağlı hansısa qrupun yaradılması cəhdi mənasızdır

Uzun on illər boyu öz karyeraları uğrunda mübarizə aparan Minsk qrupunun həmsədrləri vaxtilə Azərbaycan və Ermənistan arasında davam edən lazımsız təmasları faydalı addım kimi dəyərləndirir, vasitəçilər nəinki problemin hansısa formada həllinə çalışır, əksinə, münaqişənin dondurulmasına cəhd göstərirdilər. Bunun nəticəsi idi ki, illər uzunu "münaqişənin hərbi həlli yoxdur" deyərək işğalçı ilə işğala məruz qalanı eyniləşdirirdilər.

Prezident İlham Əliyev bu barədə I Şuşa Qlobal Media Forumunda fikirlərini ifadə edib: "Bəziləri çalışırdılar ki, bu münaqişəni dondursunlar, danışıqları sonsuz etsinlər və ictimai diplomatiya təşəbbüsləri ilə Azərbaycana müəyyən bir əməkdaşlıq təlqin olunsun".

Görünür, Minsk qrupu "fəaliyyət"i müddətində diplomatiyanın həlli çətin olan məqamlarda çıxış yolu tapmaq və bunu münaqişə tərəflərinə təqdim etmək kimi əsas vəzifələrini unudubmuş.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk qrupu yarandığı gündən etibarən münaqişə tərəfləri arasında problemin həllinə yönəlik heç bir səmərəli təşəbbüs göstərməsə də, Azərbaycan müharibənin hərbi-siyasi yolla həllini istəmədiyi üçün bu qrupun ədalətli mövqe sərgiləyəcəyinə, işğalçıya təsir və təzyiq göstərəcəyinə ümid edirdi.

→ 5



## Ermənistan beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlik manipulyasiya ilə məşğuldur

### Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar

**İyulun 27-də Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən qəzetimizə verilən məlumata görə, müraciətdə Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə yaşayan erməni milliyyətli sakinlərin guya ərzaq və dərman çatışmazlığı ilə üzləşməsi barədə son dövrdə yayılan məlumatların beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn və Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini hədəf alan siyasi manipulyasiya olduğu bildirilir. Qeyd olunur ki, Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun separatçılar tərəfindən bağlanması bu kampaniyanı başlatmış qüvvələrin həqiqi niyyətlərindən xəbər verir. Bildirilir ki, məqsəd Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya etməsinin qarşısını almaq və ya bu prosesi mümkün qədər uzatmaqdır.

Müraciətdə vurğulanır ki, Ermənistan rəhbərliyi Qarabağı Azərbaycan ərazisi kimi tanıdığını dəfələrlə bəyan etmişdir, odur ki, etnik ermənilər üçün ərzağın və digər məhsulların Ermənistandan gətirilməsinə zərurət yoxdur. Laçın yolu ilə bağlı vəziyyətə gəlincə, bu yol da Azərbaycanın suveren ərazisinin tərkib hissəsidir və ona görə də Azərbaycan öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etmişdir. Bildirilir ki, Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da Azərbaycanın bu hüququ təsbit olunmuşdur. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən Azərbaycan sərhədçisinə atəş açılması, dövlət bayrağımıza qarşı təxribat törədilməsi, Laçın yolundan sui-istifadə hallarının davam etməsi səbəbindən Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəf məhz Ermənistandır. Ermənistan tərəfi həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə mane olmamalıdır.

Müraciətin sonunda qeyd olunur ki, şərh edilənlərlə əlaqədar beynəlxalq ictimaiyyət də məsuliyyətli yanaşma nümayiş etdirməli, Ermənistan tərəfinin manipulyasiyalarına aldanmamalı və konstruktiv dialoqa sadiqlik göstərməyin zəruriliyini Ermənistana izah etməlidir.

*"Azərbaycan"*

## Ermənistanın son məzhəkəsi

### Azərbaycan İrəvandan Laçın yolundakı təxribatlarını dərhal dayandırmasını tələb edir

"Dəmir yumruq" işğalçını diz çökdürüb, ölkəmizin daxili işlərinə burnunu soxmaq istəyən xarici qüvvələri yerlərinə otuzdurub, separatçıları isə dalana dirəyərək, yumşaq ifadə etsək, nəfəslərini kəsib...

İndi təcavüzkar Ermənistan, separatçılar, onlara qahmar duran məkrli Qərb dairələri Azərbaycana qarşı təşkilatlanaraq hansı oyunlar çıxarsalar da, Laçın yolunun qarşısında, sərhədimizdə şoular, məzhəkələr düzənləsələr də, bunların "quzu cildi"nə bürünmüş fitnəkar və hiyləgər ermənilərə bir qara qəpiklik faydası olmayacaq...

→ 5

## Ermənistanı silahlandıran Hindistan öz prinsiplərinə sadiq deyil

44 günlük müharibədə rüsvayçı şəkildə məğlub olub təslimçilik aktını yalvararaq imzalayan bir ölkənin 10 noyabr üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməsi, qoşunlarının tör-töküntülərini hələ də Qarabağdan çıxarmaması revanşist qüvvələrin Ermənistan hakimiyyətinə təzyiqinin, eləcə də Ermənistan cəmiyyətinin bir qisminin "bəlkə də qaytardılar" düşüncəsindən xilas ola bilməməsinin nəticəsidir.

Elə bu düşüncəylə də aclıq, səfalət içində boğulan bir ölkə hərbi xərclərini artıraraq yeni silahlanmaya başlayıb. Erməni KİV-ində yer alan məlumata görə, 2023-cü ildə ölkənin müdafiə xərcləri 1,3 milyard dollar təşkil edir. 40 faizdən çox artan hərbi xərclər ənənəvi olaraq büdcədə böyük maliyyə tutumu olan sosial proqram üzrə xərcləri də üstələyir. Bu da Azərbaycanla sülh danışıqları aparan Ermənistanın sülhdən çox müharibəyə hazırlaşması deməkdir.

→ 4

## Qarabağın tibbi ehtiyacları olan erməni sakinlərinin Laçın sərhəd-buraxılış məntəqəsindən Ermənistana buraxılışı həyata keçirilib



**Qarabağın erməni əhalisinin Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə Həkəri çayının üzərində Azərbaycan Ermənistan sərhədində fəaliyyət göstərən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən sərbəst keçidinə növbəti dəfə şərait yaradılıb.**

AZƏRTAC-ın Laçına ezam olunan bölgə müxbiri xəbər verir ki, Xankəndidən Gorus istiqamətində hərəkət edən 7 nəqliyyat vasitəsi və 34 şəxsin buraxılış məntəqəsində qaydalara uyğun olaraq yoxlanıldıqdan sonra Ermənistana keçidi təmin edilib. Həmin 34 şəxsin 11-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin üzvü, 12-si tibbi ehtiyacı olan şəxslər və onları müşayiət edən 10 ailə üzvü, eləcə də 1 nəfər tibb heyəti olub.

Bu, bir daha onu göstərir ki, dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycan tərəfindən hər hansı maneə yoxdur. Son günlər Ermənistanın sərhədlə bağlı bəyanat və əməlləri isə sırf təxribat xarakteri daşıyır.



## "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 778; 2014, № 10, maddə 1163; 2017, № 6, maddə 1027, № 7, maddə 1257, № 12 (I kitab), maddə 2198; 2018, № 4, maddə 638; 2021, № 7, maddə 719, № 12, maddə 1315; 2022, № 7, maddə 696) 13.2-ci maddəsində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383; 2020, № 5, maddə 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1438; 2021, № 11, maddə 1204, № 12, maddə 1315; 2022, № 12, maddə 1386; 2023, № 1, maddə 33, № 2, maddə 210, № 3, maddə 335) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 224.1-ci maddənin birinci abzasına "Dövlət rüsumu haqqında" sözlərindən sonra ", "Tullantılar haqqında" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 233-1-ci maddə əlavə edilsin:

**"Maddə 233-1.** Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqı

Gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi zamanı "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə utilizasiya haqqı alınır.".

**Maddə 2.** Bu Qanun 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847, № 12 (I kitab), maddə 1425; 2021, № 4, maddə 305, № 6 (I kitab), maddə 543, № 8, maddə 897; 2022, № 8, maddə 831, № 11, maddə 1232; 2023, № 2, maddələr 150, 175, № 4, maddə 454) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 27-ci maddəyə aşağıdakı məzmunda IX-I və IX-II hissələr əlavə edilsin:

"IX-I. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Bu məqsədlə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən bu maddənin II və III hissələrində nəzərdə tutulmuş orqanlara müraciət edilir. Müraciət qəbul edildikdən sonra 3 (üç) iş günü müddətində həmin orqan tərəfindən araşdırma aparılaraq nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması və ya aşağıdakı hallardan hər hansı biri mövcud olduqda səbəbləri göstərilməklə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasından imtina barədə qərar qəbul edilir və müraciət edən şəxsə bu barədə yazılı məlumat verilir:

1) nəqliyyat vasitəsinin inzibati tənbeh etmə qismində müsadirə edilməsi və ya cinayət-hüquqi tədbir qismində xüsusi müsadirə edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

2) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında iş üzrə səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

3) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər üzrə cəza və ya digər cinayət-hüquqi tədbirlər qismində cərimənin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

4) nəqliyyat vasitəsi üzərində həbs və ya yüklülük olduqda;

5) dövlət müəssisə, idarə və təşkilatlarına, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus olan nəqliyyat vasitələrinin silinməsinə dair normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda və qaydada rəy verilmədikdə.

IX-II. Nəqliyyat vasitələri utilizasiyaya "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq dövlət qeydiyyatını həyata keçirən orqan tərəfindən verildikdə, bu Qanunun 27-ci maddəsinin IX-I hissəsinin 1-ci, 4-cü və 5-ci bəndlərinin tələblərinə əməl olunmaqla, həmin dövlət qeydiyyat orqanının qərarı ilə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılır. Bu zaman bu Qanunun 27-ci maddəsinin IX-I hissəsinin 2-ci və 3-cü bəndlərində nəzərdə tutulan ödənilməmiş cərimələrin olması nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasına mane olmur.";

1.2. 30-cu maddə üzrə:

1.2.1. VI-I hissənin 4-cü bəndinə "dövlət rüsumunun," sözlərindən sonra "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqının," sözləri əlavə edilsin;

1.2.2. VII hissənin 4-cü bəndinə "dövlət rüsumunun" sözlərindən sonra "və "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqının" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanunun 1.1-ci maddəsi 2024-cü il sentyabrın 1-dən, 1.2-ci maddəsi 2024-cü il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## M.S.Balakişiyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Mövlud Süleyman oğlu Balakişiyev (Mövlud Süleymanlı) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 930-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 930-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 233-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 930-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609; 2020, № 5, maddə 560; 2021, № 6 (I kitab), maddə 596; 2022, № 5, maddə 470, № 8, maddə 844, № 12, maddə 1447) 28.4-cü bəndinə "224.4-cü," sözlərindən sonra "233-1-ci," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2023-cü il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466; Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli və 30 may tarixli 890-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 234.0.5-ci maddədə "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

1.2. 244.1-ci maddədə "istehsalat və məişət tullantıları ilə" sözləri "tullantılarla" sözü ilə əvəz edilsin;

1.3. 266-cı maddə üzrə:

1.3.1. adında və 266.4-cü maddədə "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

1.3.2. aşağıdakı məzmunda 266.5 - 266.13-cü maddələr əlavə edilsin:

"266.5. Utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyəti ilə bağlı "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunan tələblərin pozulmasına və ya vəzifələrin yerinə yetirilməməsinə, yaxud nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxs tərəfindən bu fəaliyyətlə bağlı həmin Qanunla müəyyən olunan vəzifələrin yerinə yetirilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər altı yüz manat məbləğində cərimə edilir.

266.6. Utilizator tərəfindən utilizatorların reyestrində onun haqqında olan məlumatlarda baş vermiş dəyişikliklər barədə "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada və müddətdə nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora məlumatın verilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər altı yüz manat məbləğində cərimə edilir.

266.7. Bu Məcəllənin 266.5-ci və 266.6-cı maddələrində nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

266.8. Utilizator, yaxud nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxs tərəfindən nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın nüsxəsinin "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada nəqliyyat vasitəsini utilizasiyaya verən şəxsə verilməməsinə və ya nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora göndərilməməsinə görə -

vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

266.9. Utilizator tərəfindən "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada və müddətdə təsdiqedici sənədin verilməməsinə görə -

vəzifəli şəxslər üç min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

266.10. Utilizator tərəfindən "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada verilən təsdiqedici sənədlərlə bağlı yazılı məlumatın nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora vaxtında verilməməsinə görə -

vəzifəli şəxslər yeddi yüz manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir.

266.11. Nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilməsinə görə -

dörd min manat məbləğində cərimə edilir.

266.12. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada verilən təsdiqedici sənədlərin nəqliyyat vasitələrinin satıcısı tərəfindən uçotunun aparılmamasına, yaxud təsdiqedici sənədlər barədə yazılı məlumatın nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora vaxtında verilməməsinə görə -

beş yüz manat məbləğində cərimə edilir.

266.13. Utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə olunan yararlı materialların və əşyaların ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılması barədə utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada və müddətdə yazılı məlumatın verilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər altı yüz manat məbləğində cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 266-cı maddəsində "utilizator" dedikdə, "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan qaydada utilizatorların reyestrində qeydiyyata alınmış, nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxs başa düşülür.";

1.4. 271-ci maddənin adında və dispozisiyasında "Sənaye və məişət tullantılarının" sözləri "Tullantıların" sözü ilə əvəz edilsin;

1.5. 275.1.9-cu maddədə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 929-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 929-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, № 12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2190 nömrəli və 17 iyul tarixli 2221 nömrəli fərmanları) 5.11-ci bəndinə "266.2," rəqəmlərindən sonra "266.5-266.13," rəqəmləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 929-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2023-cü il*

# Özbəkistanın Baş naziri azərbaycanlı həmkarını ölkəsinə rəsmi səfərə dəvət edib

**İyulun 18-19-da ölkəmizdə rəsmi səfərdə olan Özbəkistanın Baş naziri Abdulla Aripov səfərinin nəticələri ilə bağlı Azərbaycanın Baş naziri Əli Əsədova məktub ünvanlayıb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda qeyd edilir ki, səfər zamanı Özbəkistan nümayəndə heyəti uğurla həyata keçirilən dəyişikliklər sayəsində Azərbaycan Respublikasının bütün sahələrdə inkişaf etdiyinin şahidi olub.

Prezident İlham Əliyevlə keçirilən görüş zamanı iki ölkə arasında mövcud olan dostluğun və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi və daha yüksək səviyyəyə çatdırılması ilə bağlı Azərbaycan və Özbəkistan liderlərinin yüksək əzmkarlığının hiss olunduğu vurğulanıb.

Bildirilib ki, Bakı şəhərində yüksək səviyyədə təşkil olunmuş tədbirlər, gündəlikdə duran aktual məsələlər, aparılmış açıq və səmimi danışıqlar Azərbaycanla Özbəkistan arasında çoxplanlı qarşılıqlı faydalı strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafına xidmət edəcək.

Nəqliyyat və logistika, energetika, sənaye kooperasiyası, kənd təsərrüfatı, mədəni-humanitar əməkdaşlıq və digər sahələrdə əldə edilmiş razılıqların iki qardaş xalqın rifahı naminə ardıcıl həyata keçiriləcəyinə əminlik ifadə olunub.

Səfər çərçivəsində Füzuli şəhərində aparılan tikinti işləri ilə də tanış olduqlarını qeyd edən Özbəkistanın Baş naziri bu şəhərin yaxın illərdə Azərbaycanın ən maraqlı və gözəl yerlərindən birinə çevriləcəyini bildirib.

A.Aripov həmçinin Azərbaycanın Baş nazirini Özbəkistana rəsmi səfərə dəvət edib.

# "İssık-Kul 2023" Forumunda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rolundan danışılıb

**İyulun 27-də Qırğız Respublikasının Çolpon-Ata şəhərində VII Beynəlxalq "İssık-Kul 2023" iqtisadi forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyəti forumda iştirak edib.

Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri Akılbek Joparov forum iştirakçılarını salamlayıb.

Forumda çıxış edən Ə.Əhmədov vurğulayıb ki, Azərbaycan regional və qlobal miqyasda əməkdaşlığın, sülhün və dialoqun təmin edilməsinə yönəlmiş strateji kurs həyata keçirir.

Qeyd olunub ki, Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan regiondakı tərəfdaşları ilə birlikdə nəqliyyat kommunikasiyalarının inkişafına, regional və kontinental ticarətin genişlənməsinə istiqamətlənmiş təşəbbüslər və layihələrdə iştirak edir.

Azərbaycan "Şimal-Cənub" və "Şərq-Qərb" Beynəlxalq Nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Qars və digər layihələr üzrə zəncirin mühüm hissəsidir. "Biz Azərbaycan ərazisindən keçməklə müxtəlif marşrutlar üzrə yükdaşımalarda illik artım müşahidə edirik. 2022-ci ilin yekunlarına görə, artım 75 faiz təşkil edib. Biz ölkəmizin ərazisindən keçməklə yükdaşımalarda sürətli artım gözləyirik", - deyə Ə.Əhmədov vurğulayıb.

Forum iştirakçılarına Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının gücünün artırılması, Azərbaycanda doqquzuncu beynəlxalq aeroport və işğaldan azad olunmuş ərazilərdə üçüncü hava limanı olacaq Laçın aeroportunun tikintisi barədə məlumat verilib.

Diqqətə çatdırılıb ki, bütün bu tədbirlər Azərbaycanın tranzit potensialının xeyli genişlənməsinə şərait yaradır, bu da daşımaların artması ilə bağlı problemlərin səmərəli həllinə kömək edəcək və beynəlxalq nəqliyyat dəhlizlərinin fasiləsiz işini təmin edəcək.

Forumda qeyd edilib ki, Azərbaycanın Böyük İpək yolunun bərpası və Orta dəhlizin inkişafı üzrə strategiyası Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına dair konsepsiya ilə üst-üstə düşür. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan Çinin təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olub.

Baş nazirin müavini həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rolundan danışıb. Bu kontekstdə Xəzər regionunu Avropaya, qlobal enerji təhlükəsizliyi sisteminə birləşdirən "Cənub qaz dəhlizi"nin mühüm töhfəsi qeyd edilib.

Təbii qazla yanaşı, Azərbaycanın alternativ enerjinin inkişafı üçün böyük potensiala malik olduğunu vurğulayan Ə.Əhmədov deyib ki, dövlətimizin başçısı 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin ölkənin energetika sistemində payının 30 faizə çatdırılmasına dair hökumət qarşısında vəzifə qoyub. Artıq bu istiqamətdə dünyanın qabaqcıl şirkətləri ilə birgə iri layihələr həyata keçirilir.

Baş nazirin müavini həmçinin Qırğızıstanı sosial-iqtisadi sahədə əldə olunmuş uğurlar münasibətilə təbrik edib. Qeyd olunub ki, Qırğızıstanda mühüm dövlət proqramları səmərəli şəkildə həyata keçirilir, əhalinin rifah halı yaxşılaşır, ölkənin investisiya cəlbediciliyi artır.

# Biznes dairələrinin sıx əməkdaşlığı Azərbaycan-Türkiyə münasibətlərinin daha da dərinləşməsini stimullaşdıracaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkiyənin ticarət naziri Ömer Bolat arasında görüş keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Mikayıl Cabbarov Azərbaycan və Türkiyə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin iqtisadi sahədə də əməkdaşlığı, birgə təşəbbüslərin reallaşdırılmasını sürətləndirdiyini deyib. Qeyd edilib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişi və bu sazişə dəyişiklik haqqında protokol iqtisadi-ticarət əməkdaşlığımızın gücləndirilməsinə əlavə stimul verir. Qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığı həyata keçirilir, ticarət dövriyyəsi artır. Vurğulanıb ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı layihələr regional əməkdaşlığı şaxələndirməklə yanaşı, bölgənin mənzərəsini dəyişir. Görüşdə Mikayıl Cabbarov Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, Türkiyə ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi barədə fikirlərini bölüşüb.

Ömer Bolat ortaq dəyərlərə malik olan ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji tərəfdaşlığını vurğulayıb, Azərbaycan-Türkiyə işgüzar dairələri arasında dialoqun gücləndirilməsi istiqamətləri barədə fikirlərini bildirib, iqtisadi potensialımızın tam həcmdə reallaşdırılmasının önəmini diqqətə çatdırıb.

Görüşdə iqtisadi əlaqələrin genişləndirilməsinə xidmət edən birgə təşəbbüslər, nəqliyyat, müasir standartlaşdırma və texniki tənzimləmə sistemi sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Türkiyə Respublikası Prezidentinin Maliyyə Ofisinin rəhbəri Göksel Aşanla keçirilən görüşdə Azərbaycan-Türkiyə birliyinin iqtisadi tərəfdaşlığın inkişafında əhəmiyyəti vurğulanıb, qarşılıqlı sərmayələrin təşviqi və sahibkarlığa dəstək sahəsində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan-Türkiyə iqtisadi-ticarət əməkdaşlığı uğurla inkişaf edir, hər iki ölkənin iştirakı ilə enerji və nəqliyyat sahəsində qlobal və regional əhəmiyyətli layihələr reallaşdırılır. İqtisadi, ticarət, maliyyə, sığorta, nəqliyyat və enerji sahələrində əməkdaşlığımız Azərbaycan və Türkiyə iqtisadiyyatının diversifikasiyasına töhfə verir.

Qeyd edilib ki, biznes dairələrinin birgə fəaliyyəti və sıx əməkdaşlığı Azərbaycan-Türkiyə münasibətlərinin daha da dərinləşməsini və ölkələrimiz arasında ticarət dövriyyəsinin, investisiya qoyuluşunun artmasını stimullaşdıracaq.

## Azərbaycanın müdafiə sənayesi naziri İstanbulda "İDEF-2023" Beynəlxalq Müdafiə Sənayesi sərgisindəki stendləri ziyarət edib

İyulun 27-də Azərbaycanın müdafiə sənayesi naziri Mədət Quliyev İstanbul şəhərində keçirilən "İDEF-2023" Beynəlxalq Müdafiə Sənayesi sərgisindəki stendləri ziyarət edib. Bu barədə AZƏRTAC-a Müdafiə Sənayesi Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Qeyd olunub ki, nazir sərgidə Türkiyə Respublikasının "TUSAŞ", "ASELSAN", "SANLAB", "ARMELSAN", "SDT Space & Defence Technologies" və digər şirkətlərin stendlərində nümayiş etdirilən müdafiə təyinatlı məmulatlar və yeni texnologiyalarla tanış olub.

Mədət Quliyevlə "ASELSAN" və "TUSAŞ" şirkətlərinin rəhbərliyi arasında ikitərəfli görüşlər keçirilib.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün bölgədəki vəziyyətlə bağlı brifinq keçirilib

**İyulun 27-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində nazir müavini Araz Əzimov tərəfindən ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.**




Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, brifinq zamanı iştirakçılar postmünaqişə dövründə regionda mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə məlumatlandırılıb.

Nazir müavini müharibədən sonra Azərbaycanın sülh təşəbbüsü ilə çıxış edən tərəf olduğunu, beynəlxalq hüququn norma və prinsiplərinə, ələlxüsus dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun şəkildə ikitərəfli əsasda Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğunu bəyan etdiyini diqqətə çatdırıb.

İlk gündən bu mövqeyin hər kəsə aydın olduğu və prosesin üç istiqaməti, yəni sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması istiqamətində həll yollarının danışıqlar masasında olduğu bildirilib. Bu gün Azərbaycanın sülh niyyətinin ən aydın təzahürünün tərəfimizdən işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə iki ölkənin sərhədinə yaxın ərazilərdə tikilən hava limanlarının olduğu qeyd edilib. Bunun qarşılığında isə Ermənistanın erməniəsilli sakinlərin yaşadığı ərazilərimizdə hərbi təxribatlar törətməsinin, radiodalğalar ilə hava limanları vasitəsilə uçuşların həyata keçirilməsinə maneçilik törətməsinin bu ölkənin əsl niyyətini bəlli etdiyi diqqətə çatdırılıb.

Sülh gündəliyi ilə bağlı Azərbaycan tərəfindən sərgilənən aydın mövqeyə baxmayaraq, Ermənistan tərəfindən heç bir beynəlxalq hüquq normasına və məntiqə sığmayan, əsası olmayan tələblərin irəli sürülməsi, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinin edilməsinin qəbuledilməz olduğu bildirilib. Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan tərəfindən rəsmi şəkildə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tanınması ilə bağlı bəyanatın verilməsinə baxmayaraq, əməldə Ermənistan tərəfindən atılan addımların birbaşa ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı olduğu, ölkəmizin daxili işlərinə qarışmaq cəhdləri ilə müşayiət olunduğu diqqətə çatdırılıb. Bu xüsusda atılan addımların normallaşma və sülh prosesini ləngitməyə, yeni böhranlar və sülhə xidmət etməyən müzakirələr yaratmağa hesablandığı və bu baxımdan sülhə deyil, Ermənistanın təhlükəli məqsədləri və gündəliyinə xidmət etdiyi bildirilib.

Laçın yolu ilə bağlı vəziyyətdən bəhs edən nazir müavini hər şeydən əvvəl bu yolun da Azərbaycanın suveren ərazisinin tərkib hissəsi olduğunu vurğulayıb və bu xüsusda Azərbaycanın öz ərazisində, öz vətəndaşlarının istifadəsi üçün sərhəd-keçid məntəqəsi təsis etdiyini bildirib. Beynəlxalq Ədalət Məhkəməsinin son qərarında da bu hüququn təsbit olunduğu diqqətə çatdırılıb. Bunu həzm edə bilməyən Ermənistan tərəfindən isə Azərbaycan sərhədçisinə atəş açıldığı, dövlət bayrağımıza qarşı təxribat törədildiyi, Laçın yolundan sui-istifadə hallarının davam etdirildiyi vurğulanaraq Laçın yolundan istifadəyə məhdudiyyət törədən tərəfin Ermənistan olduğu diqqətə çatdırılıb. Azərbaycan tərəfindən tibbi məqsədlər ilə əlaqədar yoldan erməni sakinlərin istifadəsi üçün şərait yaradıldığı, daha çox məhsulların tədarükü üçün isə onların cəmiyyətimizə reinteqrasiyasına töhfə verə biləcək Ağdam-Xankəndi yolundan istifadənin təklif olunduğunu diqqətə çatdırıb.

Ermənistan tərəfinin isə bir tərəfdən yerli erməni əhalinin bu imkanlardan istifadəsinin qarşısını aldığı, digər tərəfdən isə "humanitar yardım" adı ilə nümayişkaranə şəkildə daxili işlərimizə müdaxilə etdiyi, yaradılan şoularla beynəlxalq ictimaiyyəti yanlış yönləndirdiyi bildirilib. Vurğulanıb ki, Ermənistan tərəfi həqiqətən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirsə, Ağdam-Xankəndi yolundan yüklərin daşınmasına etiraz etməməli və reinteqrasiya prosesinə maneçilik törətməməlidir.

Bu xüsusda beynəlxalq ictimaiyyətin məsuliyyətinin vacibliyini qeyd edən nazir müavini Ermənistan tərəfinin manipulyasiyalarına aldanıb bəyanatlar verməzdən öncə, sözügedən bəyanatların nəyə xidmət edəcəyinin düşünülməli olduğunu, habelə suverenlik və ərazi bütövlüyümüzə zidd addımlardan, o cümlədən yanlış terminologiyadan çəkinilməsinin vacibliyini vurğulayıb.

Sülh danışıqlarının təşkilində dəstək göstərən ölkələrə təşəkkür ifadə olunub, habelə beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana konstruktiv dialoqa sadiqlik göstərilməsinin izah olunmasının əhəmiyyəti qeyd edilib.

Daha sonra brifinq sual-cavabla davam edib.

# Ermənistandan qayıdan 30 nəfərin "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən Xankəndiyə keçidi təmin olunub









**Qarabağın erməni əhalisinin Azərbaycan-Ermənistan sərhədində fəaliyyət göstərən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə Xankəndiyə sərbəst keçidinə növbəti dəfə şərait yaradılıb.**

AZƏRTAC xəbər verir ki, Ermənistandan Xankəndi istiqamətinə hərəkət edən 7 nəqliyyat vasitəsi və 30 şəxs buraxılış məntəqəsində qaydalara uyğun olaraq yoxlanıldıqdan sonra yollarına davam edib.

Qeyd edək ki, Xankəndiyə keçidi təmin edilən 30 nəfərdən 10-u BQXK-nın üzvü, 14-ü Ermənistandan tibbi müalicədən qayıdan erməni sakin, 5-i onları müşayiət edən ailə üzvləri, həmçinin 1-i tibbi personalın əməkdaşıdır. Bu da onu göstərir ki, dövlət sərhədindən buraxılış məntəqəsində Azərbaycan tərəfindən hər hansı maneə yoxdur. Təkcə bu gün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən hər iki istiqamətə erməni vətəndaşların sərbəst keçidi təmin olunub.

Son günlər Ermənistanın sərhəddə yol verdiyi əməllər birbaşa siyasi şou, manipulyasiya və təxribat xarakteri daşıyır.

# <u>XİN:</u> "Ermənistanın ölkəmizlə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" göndərməsi növbəti təxribatdır"

Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı növbəti təxribatdır. Bu təxribatın Ermənistan dövləti və baş nazir səviyyəsində təşviq olunması qəbuledilməzdir. Bu təxribat bir daha göstərir ki, Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət" iddiaları bu ölkənin qeyri-qanuni fəaliyyətləri davam etdirmək, əsassız siyasi manipulyasiya yolu ilə gərginlik yaratmaq niyyətindən başqa bir şey deyil.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan ərazilərinə yük göndərilməsi cəhdi ilə bağlı açıqlamasına dair şərhində qeyd olunub.

"Ermənistan tərəfi Azərbaycanı qondarma "soyqırımı" cəhdlərində təqsirləndirmək əvəzinə, Ermənistan ərazisindən azərbaycanlıların məcburi şəkildə deportasiyasına, öz yurd-yuvalarından qovulan zaman insanların kütləvi ölüm hallarına, Azərbaycan ərazilərinə təcavüz və işğal nəticəsində soyqırımı daxil, insanlıq əleyhinə cinayətlərə, etnik təmizləmə siyasəti və törətdiyi əməllərə görə üzr istəməlidir.

Ermənistan tərəfi həqiqətən də bölgədə sülh və sabitlikdə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi həmçinin Azərbaycanın erməni sakinlərin reinteqrasiyası üzrə səylərinə maneçilik törətməməlidir", - deyə nazirliyin şərhində bildirilib.

# İlham Əliyevdən ədalət çağırışı

## Azərbaycan Prezidenti bir daha Ermənistanı sülhə, dünya dövlətlərini isə qlobal problemlərin həllində həmrəyliyə dəvət etdi

*Əvvəli 1-ci səh.*




### İqtisadi və siyasi müstəqilliyin yaratdığı reallıq

İyunun 20-də Çinin "China Media Group" Media Korporasiyasına müsahibəsində, iyulun 21-də Şuşada "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" Qlobal Forumunda İlham Əliyev bir daha dünyaya ədalət çağırışı etdi. Prezident İkinci Qarabağ müharibəsində məğlubiyyətə uğrayan Ermənistanı bir daha sülhə, dünya dövlətlərini isə həmrəyliyə, qlobal problemlərin həllində mütəşəkkillik göstərməyə çağırdı.

49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsinin iştirak etdiyi I Şuşa Qlobal Media Forumunda Prezident xarici ölkələrin jurnalistlərinin müxtəlif səpkidə suallarına cavab verdi. Kifayət qədər aydın, konkret mesajlar verməklə regionun gələcəyi, Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı məsələlərə toxundu, ölkəmizin qlobal layihələrin reallaşmasında ortaya qoyduğu mövqeyini və gələcək hədəflərini açıqladı.

Çinin nüfuzlu "China Media Group" Korporasiyasına müsahibəsində isə İlham Əliyev erməni lobbisinin güclü olduğu bəzi ölkələrin, təşkilatların Azərbaycana münasibətinə aydınlıq gətirərək qətiyyətli mövqeyini nümayiş etdirdi: "Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır".

İkinci Qarabağ müharibəsindəki böyük Zəfərdən sonra isə bəzi dairələrin Azərbaycanın Zəfərinə, postmüharibə dövründə əldə etdiyi nailiyyətlərə qısqanclıqla yanaşmağa başlaması da reallıqdır. Ancaq qətiyyətli Lider kimi İlham Əliyev bəyan edir ki, Azərbaycanla hədə-qorxu, təhdid dili ilə danışmaq qeyri-mümkündür. Azərbaycan iqtisadi və siyasi müstəqilliyini təmin etmiş dövlət kimi istənilən hücumu dəf etməyə, problemi çözməyə qadir ölkədir.

### Azərbaycan yalnız beynəlxalq hüququ, ədaləti müdafiə edir

Azərbaycan həm də humanizm prinsiplərinə əsaslanan siyasət yürütməklə dünyanı narahat edən qlobal problemlərin həllində daim aktivlik nümayiş etdirir. Buna misal kimi rəhbərlik etdiyi Qoşulmama Hərəkatındakı mövqeyini göstərmək olar. Belə ki, ölkəmizin təşkilata sədrliyinin qlobal pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq, çevik və səmərəli şəkildə öz sədrlik gündəliyini yeni reallığa uyğunlaşdıran İlham Əliyev təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi ilə ortaya nümunə qoydu. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, bu problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Məhz Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi. İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında təşkilatın pandemiya ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Azərbaycan Prezidenti BMT-nin Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla keçirildi. Eyni zamanda hərəkatın sədri kimi "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

"China Media Group" Media Korporasiyasına müsahibəsində İlham Əliyev "peyvənd millətçiliyi"nə toxunaraq bildirdi ki, həmin çətin dövrlərdə bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük etdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Azərbaycan isə Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi.

Qlobal forumda isə Prezident bu məsələni belə qiymətləndirdi: "Pandemiya zamanı biz dünya ictimaiyyətinin bu problemə diqqətinin cəlb olunmasında liderlik nümayiş etdirdik. Azərbaycan sədr kimi vaksin milliyyətçiliyinə qarşı fəal çıxış edən ölkələrdən biri olub. Biz heç kimdən çəkinməyərək, ölkələri öz adları ilə adlandırırdıq - onlar özlərinə lazım olduğundan beş dəfə artıq vaksin alırdılar, baxmayaraq ki, eyni zamanda bir çox yoxsul ölkələr müdafiə olunmamış qalırdılar. Yəni bu, digərləri ilə yanaşı, sadəcə olaraq, vicdansızlıqdır. Bizim təşəbbüsümüz ilə hərəkat ölkələrində məlumat bazası yaradılıb, bu bazadan Ümumdünya Səhiyyə Təşkilatı da istifadə edib. Bundan başqa, biz humanitar və maliyyə yardımı məqsədilə 10 milyon ABŞ dolları ayırmışıq və bir çox ölkələrə vaksinlərlə yardım etmişik. Yəni hərəkat ölkələri gördülər ki, bu struktur, təşkilat olmasa da, öz məqsədlərinə nail ola bilərlər".

Bütün bunların fonunda İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə qurumun nüfuzunun daha da yüksəlməsi və mütəşəkkilliyinin güclənməsi ilə bağlı faydalı işlər görəcək: "Bakıda keçirilən sammitdə sədrliyi qəbul edərkən mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti və üzv ölkələrin legitim maraqlarını müdafiə edəcəyik. Düşünürəm ki, biz bu məsələnin öhdəsindən uğurla gəldik. İnanmaq istəyirəm ki, biz sədrlik səlahiyyətlərini təhvil verəndən sonra müsbət dinamika davam edəcək. Hər halda biz bunun üçün əlimizdən gələni edəcəyik".

### 307 günə tamamlanan böyük infrastruktur layihəsi

Prezident həmçinin Azərbaycanın son illərdə beynəlxalq nəqliyyat qovşağına çevrilməsi prosesini də qiymətləndirərək Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşmasında ölkəmizin fəal iştirakından söz açıb.

Bu bir həqiqətdir ki, Azərbaycanın yeni dünya düzənində formalaşan yol infrastrukturunun vacib halqasına çevrilməsi ölkəmizin həm siyasi, həm də iqtisadi nüfuzunu artırıb. Azərbaycan dünyanın yeni kommunikasiya xəritəsində vacib qovşağa çevrilib və "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin mühüm hissəsi olmaq imkanı yaranıb. Bu imkandan çox uğurlu və rasional istifadə etməyi bacaran dövlətimiz eyni zamanda öz ərazisində müasir yol infrastrukturu formalaşdıraraq, qlobal nəqliyyat şəbəkəsində vacib mövqeyə sahiblənib.

Dövrümüzün ən nəhəng logistikası hesab olunan və layihə dəyəri 3.8 trilyon dollar qiymətləndirilən "Bir kəmər, bir yol" layihəsində Azərbaycan da iştirakçıdır. Xüsusi qeyd edilməlidir ki, 307 günə ölkə ərazisində bu infrastruktur layihəsi tamamlanıb. Bu gün isə Azərbaycan Orta dəhlizin fəaliyyətinə böyük təkan verəcək Zəngəzur dəhlizini reallaşdırmaqdadır. Azərbaycan Zəngəzur dəhlizinin reallaşdırılması üçün öz üzərinə düşən tikinti işlərinin 70 faizə qədərini artıq tamamlayıb. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanın tranzit potensialı daha da yüksələcək. Bu dəhliz "Bir kəmər, bir yol" layihəsinin əhəmiyyətli kommunikasiya hissəsinə çevriləcək. Azərbaycanın qlobal nəqliyyat şəbəkəsinin inkişafı istiqamətində atdığı addımlar dünyada iqtisadi əməkdaşlığın genişlənməsinə əlavə təkan və töhfə verəcək.

### Ermənistanın başqa çıxış yolu yoxdur

İkinci Qarabağ müharibəsindən öncə də, sonra da Ermənistana çıxış, qurtuluş yolu göstərən İlham Əliyev yenə də missiyasına sadiqliyini nümayiş etdirərək məğlub ölkəyə sülh təklif edib. Azərbaycan Prezidenti deyib ki, müharibədə qalib və məğlub tərəflərin olması labüddür və savaşdan sonra məğlub tərəf qalibin təkliflərini qəbul edərək sülh sazişinə imza atır. Beləliklə də, iki ölkə arasında yeni münasibətlər formalaşmağa başlayır. İndi isə Ermənistan məğlub tərəf kimi sülh sazişini imzalamamaq üçün müxtəlif bəhanələr uydurur və demək olar ki, siyasi şantajla məşğuldur.

İlham Əliyev həm I Şuşa Qlobal Media Forumunda, həm də "China Media Group" Media Korporasiyasına müsahibəsində bir daha humanist siyasətinə əsaslanaraq Ermənistanı sülhə dəvət etdi. Prezident bildirdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir, Qarabağı Azərbaycanın hissəsi kimi tanıyırsa, bunu kağız üzərində də reallaşdırmalıdır: "Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir".

Əgər bu baş verərsə, Qafqazda real sülh yaranar, bütün kommunikasiyalar açılar və regionun hərtərəfli inkişafı başlayar. Əks təqdirdə bölgədə sülhün təminatı qeyri-mümkündür. Bunun acısını isə yenə də Ermənistan çəkəcək.

Göründüyü kimi, sözü imzası qədər keçərli olan İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı da qətiyyətli mövqe nümayiş etdirir. Onun qlobal təşəbbüsləri beynəlxalq miqyasda həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın və İranın xarici işlər nazirləri arasında telefon danışığı olub

**İyulun 27-də xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər ikitərəfli və regional gündəlikdə duran məsələlər, eləcə də postmünaqişə dövründə bölgədə vəziyyət üzrə fikir mübadiləsi aparıblar.

Azərbaycan-İran iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrləri arasında keçirilmiş son görüşdən irəli gələn məsələlər müzakirə edilib, ümumilikdə son aylarda yüksək səviyyədə keçirilmiş görüşlərin və qurumlararası təmasların münasibətlərin inkişafı istiqamətinə verdiyi töhfə yüksək qiymətləndirilib.

Xüsusilə, İranın xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ölkəmizdə iyul ayının əvvəli keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun nazirlər iclasında iştirak məqsədilə ölkəmizə səfəri çərçivəsində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb.




Telefon danışığı zamanı, iqtisadiyyat və nəqliyyat sahəsində əldə edilmiş ikitərəfli və regional razılıqların icrasının vacib olduğu bildirilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın postmünaqişə dövründə atdığı addımlardan bəhs edib. Bununla yanaşı, son zamanlar Laçın yolu ətrafında və bölgədə humanitar vəziyyət ilə bağlı yayılan iddiaların siyasi manipulyasiyadan başqa bir şey olmadığı diqqətə çatdırılıb. Ermənistan tərəfinin bölgədə təxribatlara son qoymasının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə sözdə və əməldə hörmət etməsinin zəruri olduğu vurğulanıb.

İslam həmrəyliyi məsələsinə toxunan nazir Ceyhun Bayramov, həmçinin son zamanlar bəzi Skandinaviya ölkələrində "Qurani-Kərim"ə qarşı baş verən nalayiq hərəkətlərin Azərbaycan tərəfindən qətiyyətlə pisləndiyini, bu kimi İslam dinini hədəfləyən addımlardan çəkinmənin vacib olduğunu diqqətə çatdırıb.

Azərbaycanla İran arasında ikitərəfli gündəlikdə duran bəzi açıq məsələlərin həll edilməsinin vacib olduğu bildirilib.

# Ermənistanı silahlandıran Hindistan öz prinsiplərinə sadiq deyil

**Ermənistan nəinki sülh danışıqlarında, ümumiyyətlə, Qarabağla bağlı danışıqlar prosesində heç vaxt səmimi olmayıb, indi də səmimi deyil. Bu ölkənin hakimiyyət orqanlarında da, cəmiyyətində də problemin güc yolu ilə həllinə ümid edən revanşist düşüncəli qüvvələr var və onlar hələ Ermənistan hakimiyyət orqanlarına təsir imkanlarından heç də məhrum olmayıblar.**

44 günlük müharibədə rüsvayçı şəkildə məğlub olub təslimçilik aktını yalvararaq imzalayan bir ölkənin 10 noyabr üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməsi, qoşunlarının tör-töküntülərini hələ də Qarabağdan çıxarmaması revanşist qüvvələrin Ermənistan hakimiyyətinə təzyiqinin, eləcə də Ermənistan cəmiyyətinin bir qisminin "bəlkə də qaytardılar" düşüncəsindən xilas ola bilməməsinin nəticəsidir.

Elə bu düşüncəylə də aclıq, səfalət içində boğulan bir ölkə hərbi xərclərini artıraraq yeni silahlanmaya başlayıb. Erməni KİV-ində yer alan məlumata görə, 2023-cü ildə ölkənin müdafiə xərcləri 1,3 milyard dollar təşkil edir. 40 faizdən çox artan hərbi xərclər ənənəvi olaraq büdcədə böyük maliyyə tutumu olan sosial proqram üzrə xərcləri də üstələyir. Bu da Azərbaycanla sülh danışıqları aparan Ermənistanın sülhdən çox müharibəyə hazırlaşması deməkdir. Təəssüf doğuran fakt budur ki, Ermənistanı silahlandıran ölkələr sırasında ən çox adıçəkilən Qoşulmama Hərəkatının üzvü olan Hindistandır. Təkcə ötən il Hindistan Ermənistana 270 milyon ABŞ dolları dəyərində silah və hərbi texnika satıb. Rəsmi erməni mənbələri bu barədə məlumat verməkdən imtina etsələr də, hərbi sahə üzrə ixtisaslaşmış "Indian Defense Research Wing" saytının yaydığı xəbərə görə, ötən il Ermənistan Hindistan şirkətinə "MARG" özüyeriyən haubitsalar sifariş edib. Nəzərə alsaq ki, haubitsa intensiv atəş altında 3 dəqiqə ərzində 10, sabit sürətlə 60 dəqiqə ərzində 42 atəş aça bilir və bu, Ermənistanın hansı niyyətdə olduğunu bir daha aydınlaşdırır.

Hindistan mətbuatı Ermənistanla hərbi-texniki əməkdaşlığın genişləndirilməsindən bəhs edərək yazıb ki, bu ilin əvvəlində Ermənistan tərəfinin Hindistan istehsalı olan MR-SAM ortamənzilli hava hücumundan müdafiə sistemlərini əldə etmək imkanları müzakirə edilib. Eyni zamanda Ermənistan ordusunda xidmətdə olan Rusiya istehsalı olan "S-125 Peçora" hava hücumundan müdafiə sistemlərini Hindistan silahları ilə əvəz etmək niyyətində olduğunu bildirib.

Ötən ilin payızında Ermənistanın müdafiə naziri Suren Papikyan Hindistanda silah sərgisində iştirak edərkən həmin ölkənin müdafiə naziri ilə görüşdüyünü, Dehlidən "Pinaka" adlı üç model reaktiv yaylım atəşi sistemləri sifariş etdiyini rəsmən təsdiqləmişdi.

Birmənalı olaraq Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlar apardığı bir vaxtda Hindistanın bu ölkəyə öldürücü silahlar tədarük etməsi Ermənistanın militarizasiyasına və vəziyyətin gərginləşməsinə yol açır və Cənubi Qafqaz regionunda davamlı sülhün, təhlükəsizliyin bərqərar olmasına maneələr törədir.

İyulun 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə görüşüb. Görüşdə Hikmət Hacıyev səfirə Ermənistan ilə Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsi və bu xüsusda son günlər mediada Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə foto və videoların yayılmasının Azərbaycan tərəfində narahatlıq doğurduğunu bildirib.

Hikmət Hacıyev vurğulayıb ki, Hindistanın bu hərəkəti özünün bəyan etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti, eləcə də bu ölkənin də təmsil olunduğu Qoşulmama Hərəkatının tarixi "Bandunq prinsipləri" ilə uyğun gəlmir. Prezidentin köməkçisi Hindistan səfirini Azərbaycan tərəfinin ciddi narahatlığını rəsmi Dehlinin diqqətinə çatdırmağa və Hindistanı Ermənistana öldürücü silahların tədarükü ilə bağlı qərarını bir daha nəzərdən keçirməyə çağırıb.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İcma: "Beynəlxalq ictimaiyyət Ermənistanın manipulyasiyasını rədd etməli, qayıdış hüququmuzu dəstəkləməlidir"

**Qərbi Azərbaycan İcması Xankəndidəki qeyri-qanuni rejimin Azərbaycanın Qarabağ bölgəsində yaşayan əhaliyə Azərbaycanın digər bölgələrindən çatdırılan yüklərin qarşısını alması nəticəsində yaranan vəziyyətə münasibət bildirib.**

AZƏRTAC xəbər verir ki, icmanın bununla bağlı yaydığı açıqlamada deyilir: "Biz - Qərbi Azərbaycan İcması Xankəndidəki qeyri-qanuni rejimin Azərbaycanın Qarabağ bölgəsində yaşayan əhaliyə Azərbaycanın digər bölgələrindən çatdırılan yüklərin qarşısını alması nəticəsində yaranan vəziyyəti diqqətlə izləyirik.

Ermənistandan qovulmuş azərbaycanlıları birləşdirən və onların hüquqlarını müdafiə edən təşkilat kimi Qərbi Azərbaycan İcması Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyası istiqamətində Azərbaycan hökumətinin səylərini alqışlayır. Azərbaycan inklüziv və tolerant cəmiyyət nümayiş etdirməklə barışıq və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarının bərpası ilə bağlı müsbət nümunə yaradır. Ümid edilir ki, Ermənistan bu nümunəni nəzərə alacaq və anlaşma, dialoq və Ermənistandakı öz yurd-yuvalarından zorla qovulmuş azərbaycanlıların təhlükəsiz repatriasiyası, bu ölkədə çoxmillətli cəmiyyətin bərpası istiqamətində addımlar atacaq.

Təəssüf ki, Ermənistan Azərbaycanın bu xoşməramlı tədbirlərinə oxşar cavab addımları atmayıb. Ermənistan nəinki öz ərazisindən qovulmuş azərbaycanlıların geri qayıtmasına qətiyyətlə əngəl törədir, həm də Azərbaycanda məskunlaşan ermənilər arasında separatizmi fəal şəkildə təşviq etməklə gərginliyi artırmaqda davam edir. Ermənistanın hərəkətləri, o cümlədən Azərbaycanın Qarabağ bölgəsində qanunsuz hərbi birləşmələrini saxlaması və Xankəndidəki qeyri-qanuni rejimə maliyyə dəstəyi yalnız vəziyyəti gərginləşdirməyə və regional sabitliyi pozmağa xidmət edir. Bu hərəkətlər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, eləcə də Ermənistandan qovulmuş azərbaycanlıların fundamental hüquqlarına açıq-aşkar hörmətsizlik nümayiş etdirir.

Xüsusilə Qərbi Azərbaycan İcması Ermənistanın və Xankəndidəki qeyri-qanuni rejimin Azərbaycanın digər bölgələrindən Qarabağ ermənilərinə təchizatı əngəlləməklə və heç bir sərhəd və gömrük nəzarəti olmadan Xankəndiyə eksklüziv təchizat marşrutları tələb etməklə süni humanitar böhran yaratmaq cəhdlərindən ciddi narahatlığını bildirir.

Qərbi Azərbaycan İcması barışıq prosesinə mane olan, həmçinin sakinlərin həqiqi ehtiyaclarının siyasi məqsədlər üçün sui-istifadə olunduğu bu manipulyasiya xarakterli taktikaları qətiyyətlə pisləyir.

Bundan əlavə, biz Avropa İttifaqının (Aİ) bu məsələyə qarışmasına dərin təəssüfümüzü və qəti şəkildə narazılığımızı ifadə edirik. Aİ missiyasının Azərbaycan hökumətinin razılığı olmadan Azərbaycana daxil olmağa cəhd edən konvoyla yanaşı olması suverenlik və ərazi bütövlüyü prinsiplərinə xələl gətirir və Ermənistana yanlış siqnal ötürür.

Xatırlatmaq istərdik ki, Avropa İttifaqının (Aİ) Ermənistandakı missiyasının mandatına Ermənistanın Azərbaycanın suverenliyini pozmağa yönəlmiş hərəkətlərində iştirak etmək daxil deyil. Vaxtilə azərbaycanlıların məskunlaşdıqları ərazilərdə yerləşdirilmiş missiyanın mandatı münaqişənin Ermənistandan zorla qovulmuş azərbaycanlılara təsirini qiymətləndirmək, onların təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmasına imkan yaradan etimad tədbirlərini dəstəkləməkdən ibarətdir. Əgər Aİ, həqiqətən də, insan haqlarını müdafiə edirsə, onda o, Ermənistanın şantaj taktikasına ortaq olmaq əvəzinə bizim geri qayıtmaq hüququmuzu dəstəkləməlidir.

Biz Ermənistan hökumətindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qəsdini dərhal dayandırmasını tələb edirik. Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyasının qarşısını almaq məqsədi daşıyan bədxah fəaliyyətinə son qoymalıdır. Biz həmçinin Ermənistan hökumətinə insan hüquqlarına hörmət etmək, bizim təhlükəsiz və ləyaqətli qayıdışımıza imkan yaratmaq və bu məqsədlə bizimlə dialoq aparmaq çağırışımızı təkrarlayırıq".

**"Minsk qrupu artıq "pensiya"ya çıxıb və faktiki olaraq mövcud deyil. Ola bilsin, yalnız kağız üzərində mövcuddur".**

Bu fikirləri Prezident İlham Əliyev bu il fevralın 18-də Münhendə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı deyib. Dövlət başçısı bu sözləri ilə müharibənin başa çatdığı, münaqişənin həll olunduğu bir vaxtda Minsk qrupunun fəaliyyəti barədə danışmağın lüzumsuz olduğunu bir daha diqqətə çatdırıb. Bu, Ermənistanın himayəsini öz üzərinə götürən, erməni lobbisinin əlində alətə çevrilən bir sıra dövlətlərə və siyasi mərkəzlərə dərs olmalıdır: guya, münaqişəni həll etmək məqsədilə yaradılmış Minsk qrupuna nə əvvəl, nə də indi - xüsusilə savaşın olmadığı bir məqamda qətiyyən ehtiyacımız yoxdur! Azərbaycan dövləti Qarabağın və Şərqi Zəngəzurun taleyini yenidən yazmağa başlayıb, bu bölgənin həyatında yeni mərhələyə - quruculuq dövrünə qədəm qoyulub.



# "Minsk qrupu artıq "pensiya"ya çıxıb"

## Mövcud olmayan münaqişə ilə bağlı hansısa qrupun yaradılması cəhdi mənasızdır

### Minsk qrupunun keçmiş missiyasını Azərbaycan təkbaşına reallaşdırıb

Uzun on illər boyu öz karyeraları uğrunda mübarizə aparan Minsk qrupunun həmsədrləri vaxtilə Azərbaycan və Ermənistan arasında davam edən lazımsız təmasları faydalı addım kimi dəyərləndirir, vasitəçilər nəinki problemin hansısa formada həllinə çalışır, əksinə, münaqişənin dondurulmasına cəhd göstərirdilər. Bunun nəticəsi idi ki, illər uzunu "münaqişənin hərbi həlli yoxdur" deyərək işğalçı ilə işğala məruz qalanı eyniləşdirirdilər.

Prezident İlham Əliyev bu barədə I Şuşa Qlobal Media Forumunda fikirlərini ifadə edib: "Bəziləri çalışırdılar ki, bu münaqişəni dondursunlar, danışıqları sonsuz etsinlər və ictimai diplomatiya təşəbbüsləri ilə Azərbaycana müəyyən bir əməkdaşlıq təlqin olunsun".

Görünür, Minsk qrupu "fəaliyyət"i müddətində diplomatiyanın həlli çətin olan məqamlarda çıxış yolu tapmaq və bunu münaqişə tərəflərinə təqdim etmək kimi əsas vəzifələrini unudubmuş.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məqsədilə təsis edilən ATƏT-in Minsk qrupu yarandığı gündən etibarən münaqişə tərəfləri arasında problemin həllinə yönəlik heç bir səmərəli təşəbbüs göstərməsə də, Azərbaycan müharibənin hərbi-siyasi yolla həllini istəmədiyi üçün bu qrupun ədalətli mövqe sərgiləyəcəyinə, işğalçıya təsir və təzyiq göstərəcəyinə ümid edirdi.

Nə az, nə çox - düz 28 il ərzində işğalın sonlandırılması üçün bircə dənə də olsa əməli fəaliyyət ortaya qoymayan Minsk qrupu BMT qətnamələrinin yerinə yetirilməsi üçün Ermənistana nəinki az da olsa beynəlxalq təzyiq göstərdi, heç onlara "gözün üstdə qaşın var" deməyi belə lüzum bilmədi.

Bu gün isə Dağlıq Qarabağ problemi yoxdur, Azərbaycan 44 günlük Vətən müharibəsində bu münaqişəni hərbi-siyasi yolla həll edib, BMT-nin qətnamələrinin icrasına təkbaşına nail olub. Belə olan halda Azərbaycanın Cənubi Qafqazda söz sahibinə çevrilməsi bir sıra qüvvələri narahat edir. Regiona sülhün gətirilməsinin qəti əleyhinə olan bəzi mənbələr Minsk qrupunun yarıtmaz fəaliyyətini bərpa etməyə çalışırlar. Azərbaycan üçün Minsk qrupunun fəaliyyətinin bərpası cəhdi isə tamamilə qəbuledilməzdir. Qərb, o cümlədən ABŞ tərəfindən bu lazımsız qurumun bərpasından ötrü edilən cəhdlər, sadəcə, siyasi riyakarlığın təzahürüdür.

### Azərbaycan erməni cinayətlərinə haqq qazandıran qurumun bərpasına imkan verməyəcək

Qərbin son illərdə bütün mövzularda Rusiyaya kəskin əks-mövqe sərgilədiyi, onu düşmən hesab etdiyi hər kəsə məlumdur. Lakin təkcə Qarabağ məsələsində Azərbaycanın maraqlarına qarşı Rusiya ilə sövdələşməyə hazır olması da diqqətdən yayınmır. Bu onu deməyə tam əsas verir ki, Qərb Minsk qrupunun bərpası üçün Cənubi Qafqazda sülh və təhlükəsizlik məsələləri ilə əlaqədar süni gündəm yaratmağa cəhdlər edir. Ancaq yarandığı gündən əsl məramına xidmət etməyən, tarixin arxivinə qovuşan, hətta zaman-zaman "ölü doğulmuş təşkilat" kimi dəyərləndirilən bir təsisatı yenidən diriltməyin artıq mümkün olmadığını unudur.

Fəaliyyətsizliyi ilə erməni cinayətlərinə, terrorizm və separatçılığa haqq qazandıran bu qurumun bərpa edilməsinə Azərbaycan heç zaman imkan verməyəcək. Cəmiyyətimizdə bu mövzu ilə bağlı mövcud olan həmrəylik ölkəmizə qarşı yeni vahid cəbhənin yaradılmasına mane olacaq. Reallıq budur ki, Minsk qrupunun vaxtilə təsis edilmə məqsədi və həll etməsi lazım olan münaqişə indi artıq mövcud deyil. Deməli, bu təşkilatın yerinə yetirmək üçün barmağını belə tərpətmədiyi keçmiş missiyası və yalnız istirahət üçün istifadə etdiyi vasitəçilik vəzifəsi gündəmdən düşmüşdür.

Bu gün Azərbaycan üçün həlli önəmli olan məsələlər 10 noyabr üçtərəfli Bəyanatının müddəalarının reallaşdırılması, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin aparılması, Böyük qayıdış prosesinin sürətləndirilməsi, regionda sülh və təhlükəsizliyin təmin olunmasıdır.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qafqazda kim tərəqqiyə, kim düşmənçiliyə köklənir?

**Qafqazı kiçik bir müstəvi kimi təsəvvür edib burada yanaşı yerləşən Ermənistanla Azərbaycanın mövcud durumuna nəzər yetirək. Bu dövlətlərdə gedən prosesləri açıq gözlə müşahidə edək. Elə ilk andan heyrətamiz situasiyalar və beynəlxalq münasibətlər baxımından heç bir ölçüyə sığmayan erməni sərsəmlikləri ilə üzləşəcəyik.**

Paradoks ondan ibarətdir ki, Azərbaycan qalib, Ermənistan isə məğlub ölkədir. Dünya təcrübəsinə və analitik məntiqə söykənsək, Ermənistan məğlub dövlət kimi danışıqlara daha yumşaq, daha üzüyola getməli, sülh müqaviləsinin bağlanması üçün bütün zəruri addımları atmalıdır. Bəşər tarixi bununla bağlı kifayət qədər ibrətamiz nümunələrlə zəngindir. Qaliblər tarixboyu məğlub etdikləri dövlətlərə diz çökdürüb, istədiklərini də təcili alıblar. Məsələn, İkinci Dünya müharibəsindən sonrakı Almaniya uzun illər dağıntılara məruz qoyduğu ölkələrə repatrasiyalar ödəyib. 1945-ci ildə Podstam Konfransının sənədlərinə görə, Almaniya vurduğu ziyanları hətta zavodlar, fabriklər, maşınlar, avadanlıqlar, mal ehtiyatları və başqa vasitələrlə ödəmək məcburiyyətində qaldı. Bundan başqa, Almaniya sərmayə ödənişlərinə məcbur edildi. Faşist Almaniyasından reparativ ödənişlər qalib dövlətlər tərəfindən zorla alınırdı və bu ödənişlərin razılaşdırılmış, dəqiq məbləği yox idi. Beləliklə, Almaniya uzun illər işğal etdiyi bütün ölkələrə vurduğu ziyanları ödəməyə məcbur edildi. Hətta 2000-2007-ci illərdə də bütün repatrasiya ödənişlərindən əlavə nasizmin qurbanlarına kompensasiyalar verdi.

İkinci Dünya müharibəsindən sonra təxminən 20-yə yaxın dövlət Almaniyadan onlara vurulan ziyanlara görə repatrasiyalar almışdır. Yalnız Rusiyada, Polşada və Çexiyada yaşayan 1,66 milyon insana 4,4 milyard avro ödənilmişdi. 2011-ci ilin dekabrında almanlar 16 min Xolokost qurbanına 650 milyonluq təqaüd ayırmağı öhdələrinə götürmüşdülər. Almaniya Federativ Respublikası 2014-2017-ci illərdə Xolokost qurbanlarına yardım edən müxtəlif təşkilatlara 772 milyon avro ödəmişdi.

İndi Ermənistanın 30 illik müharibədən sonra hansı repatrasiya ödənişlərinə məcbur edildiyini axtarın. Bununla bağlı heç nə tapa bilməyəcəksiniz. Ona görə ki, erməni faşizmi dünya tərəfindən qətiyyətlə ittiham edilmək əvəzinə, alman faşizmindən fərqli olaraq, ərköyün uşaq kimi bəslənilib sığallanır. Ukrayna ilə aparılan müharibədə bütün dünya Rusiyaya qarşı birləşib, qanlı döyüşlərdə Ukraynaya ciddi yardım edir. Rusiyaya qarşı tətbiq edilən aksiyaların, qadağaların sayı-hesabı yoxdur. Ermənilər isə hələ də "məzlum xalq" titulunun kölgəsində yaşamağa çalışır, törətdikləri cinayətlərdən heç birinin bədəlini ödəmək niyyətində deyillər. Özlərini məharətlə faşist qiyafəsi altında gizlənən məzlum xalq kimi göstərməyi bacarırlar.

Bu gün Azərbaycan bütün dünyanın gözü qarşısında işğaldan azad etdiyi ərazilərində təkbaşına sıfırdan başlayan quruculuq işləri aparır, demək olar ki, dağıdılan, viran qoyulan bütün kənd və şəhərlər yenidən salınır. Bu işə milyardlarla vəsait qoyulur. Amma Ermənistan bu ağır ziyanlardan hansılarını ödəyəcəyini dilinə də gətirmir. Ermənilərin qaldırdığı hay-küy Qarabağdakı dinc əhalinin, guya, "genosid"ə məruz qalması, blokadaya alınması ilə bağlıdır.

Şuşada I Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyev bu məsələyə belə aydınlıq gətirib: "Ermənilər deyildimi Qarabağı viran qoyan, əlavə yeddi rayonu işğal edən və bir milyona yaxın insanı evindən, eşiyindən didərgin salan. Məgər bunların hesabatı verilməyəcəkmi?" Dövlət başçısı onu da qeyd edib ki, ermənilər törətdikləri cinayətlərin sayı-hesabı olmadığını yaxşı dərk edirlər. Ona görə vahimə içində yaşayırlar.

Ermənilər törətdikləri cinayətlərin nə dərəcədə bağışlanılmaz olduğunu hamıdan yaxşı bilirlər və ona görə də bu məsələlərdən yayınmağa çalışırlar. Azərbaycan hökumətinin verdiyi təminatlara belə güvənə bilmirlər. İçlərindəki düşmənçiliyi yana qoymaqda, sülhə əyilməkdə acizdirlər.

Məğlub edilən, ordusu darmadağın edilən dövlətin yenidən anlaşılması mümkün olmayan bir həvəslə silahlanmaya can atması isə itirilən imkanları bərpa etməyə yox, daha yeni fəlakətlərə yol açır. İlham Əliyev belə müqayisə aparır: "Biz onların şəhərlərini dağıtmırdıq, biz onların qəbirlərini dağıtmırdıq, onların ölülərinin sümüklərini çıxarmırdıq. Nə üçün bunu ediblər? Bu insanların ürəyində bizə qarşı nə qədər nifrət var idi ki, insanlığa sığmayan bu əməlləri etsinlər".

Dövlət başçısı bu forumda həm də Böyük qayıdış proqramından danışdı. Artıq 30-dan çox şəhər və kəndin baş planı təsdiqlənmiş, bir çox kəndlərin təməli qoyulmuşdur: "Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insanı qaytaracağıq. İndi biz, necə deyərlər, işin ibtidai mərhələsindəyik. Çünki layihələndirmə, tender prosedurları çox vaxt aparır. Biz istəyirik ki, hər şey qayda ilə, qanunla olsun, tam şəffaf olsun və bu da vaxt aparır. Əminəm ki, keçmiş köçkünlər bunu anlayışla qarşılayırlar. Amma təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Ümid edirəm ki, Şuşa şəhərinə gələn il ilk sakinlər gələcək, yerləşəcəklər".

Azərbaycan viran qoyulmuş ərazilərə milyardları xərcləyir, yeni yollar, körpülər salınır, şəhərlərin və kəndlərin bünövrəsi qoyulur. Ermənilər isə barışa getməkdə acizdirlər, mina basdırmaqla, sərhəddə iğtişaşlar törətməklə məşğuldurlar. Müharibədən sonrakı iki il yarım ərzində onlar bir dəfə də olsun sülhə maraq göstərməyiblər.

Bu iki il yarım ərzində Azərbaycanın gördüyü işlər təkcə bizim ciddi maliyyə imkanlarına sahib olduğumuzu göstərmir. Biz həm də sübut etdik ki, çox ciddi təcrübəmiz və peşəkar kadrlarımız var. Əgər belə olmasaydı ermənilərin hələ də davam edən düşmənçiliklərinin fonunda belə miqyaslı layihələri qısa müddətdə həyata keçirmək mümkün olmazdı. İlham Əliyev deyir: "Heç kim təsəvvür edə bilməzdi ki, cəmi iki il yarım ərzində bu qədər genişmiqyaslı işlər görüləcək, özü də böyük ərazidə - 10 min kvadratkilometri əhatə edən ərazidə durmadan gecə-gündüz işlər gedir. Azərbaycan ictimaiyyəti də vaxtaşırı məlumatlandırılır, həm planlar haqqında, həm də görülmüş işlər haqqında".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Ermənistanın son məzhəkəsi

## Azərbaycan İrəvandan Laçın yolundakı təxribatlarını dərhal dayandırmasını tələb edir

**Azərbaycanın parlaq qələbəsi ilə bitən Vətən müharibəsindən sonra Cənubi Qafqazda reallıqlar tamamilə dəyişib və bölgədə baş verən bütün proseslər Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə dayanaraq diktə etdiyi şərtlərə uyğun gerçəkləşdirilir.**

Elə haqq və hüquqa dayanan bu reallıqların tələbinə əsasən də hazırda separatçıların və Qarabağda yaşayan sadə ermənilərin qarşılarında iki seçimləri var - ya Azərbaycan qanunlarına tabe olaraq onun bayrağı altında ölkəmizin vətəndaşı kimi ərazilərimizdə yaşayacaqlar, ya da torpaqlarımızı birdəfəlik tərk edəcəklər...

Bundan başqa çıxış yolları yoxdur.

"Dəmir yumruq" işğalçını diz çökdürüb, ölkəmizin daxili işlərinə burnunu soxmaq istəyən xarici qüvvələri yerlərinə otuzdurub, separatçıları isə dalana dirəyərək, yumşaq ifadə etsək, nəfəslərini kəsib...

İndi təcavüzkar Ermənistan, separatçılar, onlara qahmar duran məkrli Qərb dairələri Azərbaycana qarşı təşkilatlanaraq hansı oyunlar çıxarsalar da, Laçın yolunun qarşısında, sərhədimizdə şoular, məzhəkələr düzənləsələr də, bunların "quzu cildi"nə bürünmüş fitnəkar və hiyləgər ermənilərə bir qara qəpiklik faydası olmayacaq...

### Bu tamaşada da "yazıq" rolunu Ermənistan özü oynayır

Ermənistan 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü şərtləri yerinə yetirməkdən müxtəlif manipulyasiyalarla yayınır, iki ölkə arasında sülhə nail olunmaması üçün özünəməxsus bicliyə əl atır. Hələ də öz silahlı tör-töküntülərini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdən çıxarmayan İrəvan Qarabağın Azərbaycan ərazisi olduğunu rəsmi səviyyədə bəyan etsə də, bunu imzası ilə təsdiqləməkdən boyun qaçırır. Üstəlik də, mütəmadi olaraq ölkəmizə qarşı siyasi və hərbi təxribatlar törətməklə torpaqlarımıza ərazi iddiası güddüyünü açıq şəkildə nümayiş etdirir.

Ermənistanın hazırda ssenariləşdirdiyi və özünün də "yazıq" obrazını oynadığı növbəti tamaşası isə Laçın yolunda ölkəmizin yaratdığı sərhəd-keçid məntəqəsi ilə bağlıdır. Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq sərhədində buraxılış-keçid məntəqəsi yaratmasını həzm edə bilməyərək bunu Laçın yolunun "bağlanması", Qarabağda yaşayan erməni sakinlərin "blokadası", "humanitar fəlakət"ə düçar olması kimi beynəlxalq ictimaiyyətə sırımaq istəyən Ermənistan iyulun 26-da Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinə qarşı növbəti təxribat həyata keçirdi. Ölkəmizlə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" adı altında avtomobil konvoyları göndərdi.

O da diqqətdən yayınmayan təəssüfedici məqamdır ki, ermənilərin yazdıqları və məharətlə oynadıqları bu gülünc tamaşada Avropa İttifaqının Ermənistandakı missiyası ilana ağu daşıyan kərtənkələ rolunu oynamağı öz üzərinə götürüb.

### Oyun bitdi

Ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qəsd olan bu hadisə ilə bağlı Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonrakı tviter paylaşımında bildirib ki, teatral səhnələr və yük maşınlarını nümayiş xətrinə Laçın yoxlanış məntəqəsinə gətirməkdənsə, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməli, öz qüvvələrinin elementlərini Azərbaycanın Qarabağ regionundan çəkməli və qanunsuz marionet rejimin maliyyələşdirməsini dayandırmalıdır.

Sözügedən tarixdəki digər bir tviter paylaşımında isə Hikmət Hacıyev diqqətə çatdırıb ki, Ermənistan tibbi evakuasiya və çatdırılma üçün istifadə edilən Laçın yolu məsələsində siyasi manipulyasiya və spekulyasiya ilə məşğuldur. Xankəndidəki separatçıların marionet "lider"ləri yerli əhalini öz siyasi ambisiyalarının girovu kimi saxlayırlar.

Prezidentin köməkçisi xatırladıb ki, Brüsseldə Ağdam-Xankəndi yolunun yüklərin daha böyük həcmdə çatdırılması üçün istifadə edilməsi barədə razılıq əldə olunub. Bu, BQXK-nin bəyanatında da təsdiqlənib: "Təkcə Laçın yolundan istifadə etməkdə israrlı olmaq, amma Ağdam yolundan imtina etmək, yolu bağlamaq, siyasiləşdirmək yolverilməzdir. Beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolundan istifadə edilməsi və Qarabağın erməni əhalisinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın ismarış verməlidir. Başqa yol yoxdur! Oyun bitdi!"

Azərbaycan Xarici İşlər Nazirliyi də ölkəmizin suverenliyi əleyhinə və Laçın sərhəd-buraxılış məntəqəsinə qarşı Ermənistanın növbəti təxribatlarına dair bəyanat verib. Bəyanatda deyilir ki, Azərbaycanın öz sərhədlərinə nəzarət və Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə təsis etdiyi Laçın sərhəd-buraxılış məntəqəsinin mövcudluğunu həzm edə bilməyən Ermənistan tərəfinin ölkəmiz ilə razılaşdırmadan Azərbaycanın suveren ərazilərinə "humanitar yük" adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsddir, Laçın sərhəd-keçid məntəqəsinə qarşı növbəti təxribatdır.

"Qeyd edilən təxribatda Avropa İttifaqının Ermənistandakı missiyasının və diplomatik korpusun da alət edilməsi, bunun əvvəlcədən planlaşdırılmış addım olduğunu nümayiş etdirib", - deyə bildirilən bəyanatda Azərbaycan XİN bu kimi təxribatlardan əl çəkməyi Ermənistan tərəfindən bir daha tələb edib.

### Bu yol sadə erməni sakinlərin üzünə açıqdır

Xatırladaq ki, Azərbaycan tərəfi Qarabağdakı erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadəni təklif edib və bu təklif Avropa İttifaqı tərəfindən də təqdir olunub.

İyulun 15-də baş tutan altıncı Brüssel görüşündən sonra Aİ lideri Şarl Mişel bildirib ki, Bakının həm erməni icması, həm də Rusiya hərbi kontingentinin humanitar ehtiyaclarının qarşılanması üçün öz ərazisi vasitəsilə, alternativ təchizat yolu kimi Xankəndi-Ağdam yolunu təklif etməsi də müzakirə edilib və Aİ tərəfindən təqdirlə qarşılanıb.

Lakin erməni tərəfi Azərbaycanın alternativ yol təklifinə qarşı çıxır, bu yola beton maneələr düzməklə əraziyə girişi bloklayır, bir sözlə, məqsədli şəkildə orada yaşayan əhalini humanitar fəlakətlə üz-üzə qoyur. Digər tərəfdən də, Laçın buraxılış-keçid məntəqəsinin qarşısında şou düzəltməklə humanitar vəziyyət barədə yalan, böhtan xarakterli iddialar irəli sürərək beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir.

Həqiqət isə bundan ibarətdir ki, özünü Qarabağda yaşayan ermənilərin "təəssübkeşi" kimi aparan Ermənistanın bu sakinlərin aqibəti, nə 44 günlük müharibəyə qədər, nə də sonrakı dövrdə maraqlandırmayıb. Ermənistanın əsl məkrli niyyəti bu yol vasitəsilə sərbəst şəkildə separatizmə, cinayətkar xunta rejiminə dəstək göstərməkdir. Çünki İrəvanın yalan iddiasının əksinə Laçın yolu hazırda da sadə erməni sakinlər üçün açıqdır.

Ötən gün də Qarabağın erməni əhalisinin BQXK vasitəçiliyi ilə Laçın sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidinə növbəti dəfə şərait yaradıldı. Belə ki, Xankəndidən Gorus istiqamətində hərəkət edən 7 nəqliyyat vasitəsi və 34 şəxsin buraxılış məntəqəsində qaydalara uyğun olaraq yoxlanıldıqdan sonra Ermənistana keçidi təmin edildi. Həmin 34 şəxsin 11-i Beynəlxalq Qırmızı Xaç Komitəsinin üzvü, 12-si tibbi ehtiyacı olan şəxslər və onları müşayiət edən 10 ailə üzvü, eləcə də 1 nəfər tibb heyəti olub.

Bu bir daha onu göstərir ki, dövlət sərhədinin buraxılış məntəqəsində Azərbaycan tərəfindən hər hansı maneə yaradılmır.

### Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki...

Azərbaycan bu il aprelin 23-də üçrəngli bayrağını Laçın yolunda yüksəldib və iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın Ermənistanla şərti dövlət sərhədlərində nəzarət-buraxılış məntəqəsini qurmaqla bağlı beynəlxalq hüquq əsasında suveren hüquqa malik olduğunu rəsmi olarq, tanıyıb.

Göründüyü kimi, haqq da, hüquq da ölkəmizin tərəfindədir və Ermənistanın, onun xarici bacılıqlarının hansı teatr tamaşaları oynamalarına baxmayaraq, milli maraqlarımızın təmini ilə bağlı reallığa, beynəlxalq prinsiplərə əsaslanan şərtləri Azərbaycan diktə edir.

Hadisələrin bundan sonrakı inkişafını və nəticələrini isə artıq separatçılar düşünməlidirlər...

Necə ki bunu Mayın 28-də - Müstəqillik Günündə Laçın şəhərindən Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan edib: "Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki hadisələr başqa cür inkişaf edəcək".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan ilə Moldovanın Baş prokurorluqları arasında anlaşma memorandumu imzalanıb

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Moldova Respublikasının baş prokuroru vəzifəsini icra edən İon Muntyanunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**




AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib.

Kamran Əliyev Vətən müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş quruculuq-bərpa işləri barədə qonağı məlumatlandırıb. Azərbaycan Respublikasının Prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Moldovanın baş prokuroru vəzifəsini icra edən İon Muntyanu göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan ilə Moldova prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Ölkələrimiz arasında müasir əlaqələrimizin təməli bu il 100 illik yubileyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ sovetlər dövründə qoyulduğunu bildirən Moldovanın baş prokuroru İon Muntyanu ölkəsində də bu münasibətlə silsilə tədbirlərin keçirildiyini bildirib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

Daha sonra baş prokurorlar ölkələrimiz arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalayıblar.

Səfər çərçivəsində moldovalı qonaqlar Baş Prokurorluğun yeni inzibati binasında və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçiriblər.

Nümayəndə heyətinə ölkəmizin prokurorluq orqanlarının mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə fəaliyyəti haqqında geniş məlumat verilib.

İon Muntyanunun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Ermənistanın təxribatlarına susqunluq sərgiləməsi və Azərbaycana qarşı qərəzli çağırışlar etməsi Fransanın siyasətinin yanlış olduğunu göstərir

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Laçın yolu ilə bağlı 27 iyul tarixli bəyanatında Azərbaycanın Laçın yolunu blokadada saxladığı barədə iddiasını qətiyyətlə rədd edirik.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin həmin bəyanatına dair şərhində qeyd olunub.

A.Hacızadə bildirib ki, üçtərəfli Bəyanat çərçivəsində öhdəliklərə və danışıqlar prosesinə istinad edən, nədənsə son üç il ərzində Azərbaycan ərazilərində erməni silahlı qüvvələrinin mövcudluğu, Azərbaycana qarşı hərbi təxribatların davam etdirilməsi, Azərbaycana qeyri-qanuni olaraq hərbi məhsulların və minaların ötürülməsi, eləcə də kommunikasiyaların açılışına Ermənistan tərəfindən maneçilik törədilməsi kimi bəyanatın ciddi pozuntularına önəm verməyən Fransa tərəfinin yanlışlıqla Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsi təsis etməsini öhdəliklərə zidd olaraq qiymətləndirməsi qəbuledilməzdir.

Beynəlxalq Ədalət Məhkəməsinin qərarına istinad edən Fransa tərəfi unudub ki, məhkəmə məhz 6 iyul tarixli qərarı ilə Laçın sərhəd-buraxılış məntəqəsinin tam legitim olduğunu təsdiqləyib, bu məntəqəni aradan qaldırmaq və sərhədçiləri geri çəkmək barədə Ermənistanın müraciətləri yekdilliklə rədd olunub.

"Azərbaycan tərəfinin sərhəddə nəzarət və şəffaflıq tətbiq etməklə, Laçın yolundan qeyri-qanuni məqsədlərlə istifadənin qarşısının alınması, yoldan sui-istifadə hallarına yol verilməməsi ilə bağlı öhdəliyi və səlahiyyəti mövcuddur.

Bu səylərə baxmayaraq, Ermənistan tərəfi yenə də təxribatlardan əl çəkməyib, buraxılış məntəqəsinə atəş açıb, qaçaqmalçılığa cəhd göstərib və Azərbaycanın icazəsi olmadan əraziyə yük avtomobilləri göndərməyə çalışıb. Azərbaycan tərəfi bu təxribatlara baxmayaraq, yenə də Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə erməni sakinlərin məntəqədən keçidinə şərait yaradıb və yalnız bir gün ərzində - 27 iyul tarixində Laçın sərhəd-buraxılış məntəqəsindən 34 nəfər şəxsin 7 nəqliyyat vasitəsilə keçidi təmin olunub. Böyük həcmdə yüklərin əraziyə daşınması üçün isə Ağdam-Xankəndi daxil olmaqla alternativ yollar təklif edilsə də, Azərbaycanın suveren ərazisində bu qərarına uzun müddət ərzində nümayiş etdirilən hörmətsizlik humanitar vəziyyət ilə bağlı səslənən iddiaların yalnız spekulyasiya olduğunu göstərir.

Bütün bu məsələlər kontekstində Fransa tərəfinin yenə də Ermənistanın təxribatlarına qarşı susqunluq sərgiləməsi və Azərbaycana qarşı qərəzli şəkildə çağırışlar etməsi Fransa tərəfindən həyata keçirilən siyasətin yanlış olduğunu nümayiş etdirir.

Ümumiyyətlə, Ermənistan tərəfinin manipulyasiyalarına aldanıb məsələ ilə bağlı qərəzli bəyanatlar verməzdən öncə Azərbaycan əleyhinə bu kimi bəyanatların nəyə xidmət etdiyini bir daha düşünməyə, bu kimi bəyanatların bölgədə sülh və sabitliyə xidmət etmədiyini anlamağa çağırırıq", - deyə şərhdə bildirilib.

# Əmək və sosial müdafiə sahəsində bu il aparılan işlər və qarşıda duran hədəflər müzakirə olunub

**"Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə verdiyi tapşırıqlara uyğun olaraq, sosial islahatların davam etdirilməsi, yeni sosial paketin hazırlanması əsas vəzifələrdən biri kimi qarşıya qoyulub".**

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlikdə keçirilən kollegiya iclasında bildirib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda "Böyük Qayıdış"a dair Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə köçürülmüş vətəndaşların aktiv məşğulluq tədbirlərinə cəlb edilməsinin prioritet istiqamətlərdən biri olduğu vurğulanıb. Həmin şəxslərin daimi məşğulluğunun təmin edilməsi üçün onların peşə hazırlığı kurslarına cəlb edilməsinin əhəmiyyəti qeyd edilib.

Digər prioritet istiqamət kimi həmin ərazilərdə sosial infrastruktur layihələrinin həyata keçirilməsi olduğu bildirilib. Bu istiqamətdə Cəbrayılda DOST mərkəzinin və Peşə Hazırlığı Mərkəzinin, Kəlbəcərdə reabilitasiya mərkəzinin və digər işğaldan azad edilmiş rayonlarda DOST filiallarının yaradılacağı diqqətə çatdırılıb.

Nazir Naxçıvan Muxtar Respublikasında sosial sahədə idarəçilik və xidmətlər sistemində yeniliklərin tətbiqi, sosial infrastrukturun müasir tələblərə uyğun qurulması, sosial xidmətlərin əlçatanlığının artırılması istiqamətində hədəfləri qeyd edib.

İclasda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sosial təminat sisteminin gücləndirilməsi, sosial ödənişlərin artırılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımlar barədə məlumat verilib.

Bildirilib ki, əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 1 faiz və ya 18,5 min müqavilə artaraq 1 milyon 765 minə çatıb, əməkhaqqı fondunda 10 faiz artım qeydə alınıb.

171,6 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, o cümlədən 6,8 min nəfər özünüməşğulluq proqramına, 2,8 min nəfər ödənişli ictimai işlər proqramına cəlb olunub.

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri proqnozla müqayisədə 197 milyon manat çox olmaqla 3 milyard 271 milyon manat, xərcləri 418 milyon manat çox olmaqla 3 milyard 9 milyon manat təşkil edib.

Pensiya, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları üzrə əhaliyə ötən ilin müvafiq dövrünə nisbətən 695 mln. manat və ya 21,4 faiz çox olmaqla 3,9 milyard manat ödənilib.

Pensiyaların orta aylıq məbləğinin 18 faiz artaraq 433 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləğinin 17 faiz artaraq 466 manata çatdığı bildirilib.

İclasda sosial müdafiə və aktiv məşğulluq, ödənişli ictimai işlər proqramlarının icrası, əmək qanunvericiliyinə və digər sahələrdə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# *Dövlət Xidməti:* "560-dan çox istifadəçinin hakerlərin qurbanına çevrildiyi müəyyən olunub"

**Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarının mövcud və yarana biləcək təhlükələrdən qorunması məqsədilə informasiya təhlükəsizliyi üzrə audit və monitorinqlərini davam etdirir.**

Xidmətin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dövlət qurumlarının əməkdaşları üçün həyata keçirilən "Kibergigiyena layihəsi"nə, "İnformasiya təhlükəsizliyinin təmini üzrə Təlimat"ın tətbiqinin təşviq edilməsinə, eləcə də həyata keçirilən digər maarifləndirmə tədbirlərinə baxmayaraq, ikinci rüb ərzində bir sıra dövlət qurumlarının əməkdaşları kibergigiyena qaydalarına riayət etməyərək haker hücumlarının qurbanına çevriliblər.

Məlumat üçün qeyd edək ki, ikinci rübün nəticələrinin birinci rüb ilə müqayisəsindən görmək olar ki, kiberhücumların qurbanına çevrilmiş dövlət qulluqçularının sayında 3 dəfəyə qədər azalma müşahidə olunub. Belə ki, birinci rüb ərzində haker hücumlarının qurbanına çevrilmiş dövlət qulluqçularının sayı 101 idi.

Bununla yanaşı, internetdən istifadə edərkən informasiya təhlükəsizliyinə, fərdi kibergigiyena qaydalarına riayət etməyən vətəndaşlar da haker hücumlarının qurbanına çevrilirlər. Belə vətəndaşların ümumi statistikası haqqında Xidmətimizdə məlumat olmasa da, haker hücumlarının qurbanına çevrilərək şəxsi kompüterlərindəki məlumatlarla yanaşı, istifadəçisi olduqları dövlət qurumlarının elektron xidmətlərinə aid autentifikasiya (loqin, şifrə) və fərdi məlumatlarını da hakerlərin qurbanına çevrilmiş vətəndaşların statistikasını müəyyən etmək mümkün olub.

Qeyd etmək lazımdır ki, birinci rüb ərzində vətəndaşlardan hakerlərə sızmış dövlət qurumlarının elektron xidmətlərinə aid hesabların sayı 6472 olub.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 1,8,11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Bu günədək 30 min tona yaxın ərzaqlıq buğda tədarük olunub

**Azərbaycan Respublikası Prezidentinin ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə qəbul etdiyi "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli Fərmanının icrası istiqamətində işlər davam etdirilir.**



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, fərmanın icrası ilə əlaqədar respublikanın 18 rayonunda 28 təsərrüfatla 22,4 min hektar pivotaltı sahədə ərzaqlıq buğda istehsalının həyata keçirilməsinə dair müqavilələr bağlanılaraq əkinlər aparılıb. Şirkətlərdən daxil olmuş operativ məlumatlara əsasən, həmin sahələrin 22 min hektarında (98,1 faiz) biçin aparılaraq 111,8 min ton məhsul istehsal edilib. Hər hektardan orta məhsuldarlıq 50,1 sentner olub.

Hazırda ərzaqlıq buğdanın dövlət tədarükü prosesi davam edir. Bu günədək tədarük məntəqələrinə 29,8 min ton ərzaqlıq buğda təhvil verilib ki, bunun da 253 tonunu 1-ci sinif, 12,2 min tonunu 2-ci sinif və 17,3 min tonunu isə 3-cü sinif ərzaqlıq buğda təşkil edir. Hazırda sahələrdən yığılmış ərzaqlıq buğdanın tədarükü ilə bağlı işlər davam etdirilir.

Qeyd edək ki, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanın 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Nazirlər Kabineti bu ilin 21 iyun tarixində "Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyənləşdirilməsi barədə" Sərəncam qəbul edib. Sərəncama əsasən, Azərbaycan Respublikası Nazirlər Kabineti 2009-cu il 7 iyul tarixli 105 saylı Qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində qeyd edilən keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2023-ci il üçün 450 manat müəyyən edilib.

"Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunmuş və Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilmiş ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödəniləcək.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 235

QƏRAR

Bakı şəhəri, 20 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 549) ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Akronimlər" hissəsində iyirmi birinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda iyirmi ikinci abzas əlavə edilsin:

**"YFS** - yumaqcıq filtrasiya sürəti.".

2. "Əlilliyin müəyyən olunması meyarları"na Əlavə - "Orqanizmin funksiyalarının pozulmasının faiz göstəricisi və müddəti" üzrə:

2.1. 1-ci hissə üzrə:

2.1.1. 1.1.1-ci, 1.1.1.3-cü, 1.1.4-cü, 1.1.4.1-ci, 1.1.5.2-ci, 1.1.6.3-cü və 1.1.7.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1. | emfizema | J43 | | |
| | digər xroniki obstruktiv ağciyər xəstəliyi | J44 | | |
| | bronxoektaziya xəstəliyi | J47 | | |
| | xarici amillərin təsirindən yaranan ağciyər xəstəlikləri | J60-J70 | | |
| | əsasən interstisial toxumanı zədələyən digər respirator xəstəliklər | J80-J84 | | |
| | aşağı tənəffüs yollarının irinli və nekrotik halları | J85-J86 | | |
| | tənəffüs sistemi orqanlarının digər xəstəlikləri | J95-J99 | | |
| | tənəffüs orqanlarının anadangəlmə inkişaf qüsurları | Q30-Q34 | | |
| 1.1.1.3. | ağır forma, davamlı residivləşən gedişat, daimi ağır təngnəfəsliklər, hiperkapniya, xroniki respirator hipoksemiya, xroniki respirator alkaloz, III dərəcəli xroniki tənəffüs çatışmazlığı və ya IIB və III dərəcəli xroniki ağciyər-ürək çatışmazlığı ilə | | 85-100 | müddətsiz |
| 1.1.4. | ağciyər sarkoidozu | D86.0 | | |
| | limfa düyünlərinin sarkoidozu | D86.1 | | |
| | limfa düyünlərinin sarkoidozu ilə birgə müşahidə olunan ağciyər sarkoidozu | D86.2 | | |
| | digər dəqiqləşdirilmiş və kombinə olunmuş lokalizasiyalı sarkoidoz | D86.8 | | |
| 1.1.4.1. | tənəffüs orqanlarının funksiyasının mülayim dərəcə pozuntusu - ağciyər sarkoidozu (və ya) limfa düyünləri sarkoidozu ilə II dərəcə ağciyər sarkoidozu, fəal mərhələ, I dərəcə tənəffüs çatışmazlığı ilə | | 40-60 | 2 il |
| 1.1.5.2. | ağır dərəcəli klinik təzahür, IIB-III dərəcəli xroniki tənəffüs çatışmazlığı ilə, fəsadlaşmalar və (və ya) digər orqanların kombinə edilmiş zədələnmələri ilə | | 65-80 | 2 il |
| 1.1.6.3. | multirezistent və ya çoxsaylı dərmanlara davamlı (MDR) vərəm (infiltrasiya, dağılma, yayılma mərhələsi, VMB+ və ya VMB-) | | 85 | 2 il |
| 1.1.7.2. | II-III dərəcə xroniki ağciyər-ürək çatışmazlığı ilə müşayiət olunan tənəffüs orqanlarının vəreminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş fəsadları (bronxoektaziya, fibroz, fibrozlu-ocaqlı, bullozdistrofik, kalsinatlar, plevropnevmoskleroz, sirroz, cərrahi müdaxilə nəticələri) | | 85-100 | müddətsiz |

2.1.2. 1.1.1.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda nöqtəli vergül işarəsi vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "çatışmazlığı" sözündən sonra "ilə" sözü əlavə edilsin;

2.1.3. 1.1.1.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda nöqtəli vergül işarəsi "və ya" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "çatışmazlığı" sözündən sonra "ilə" sözü əlavə edilsin;

2.1.4. aşağıdakı məzmunda 1.1.1.4-cü, 1.1.3.4-cü, 1.1.4.1-1-ci və 1.1.7.1-1-ci yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.1.1.4. | 18 yaşınadək şəxslərdə tənəffüs çatışmazlığı olmadan (əməliyyatdan əvvəlki hal) | | 40 | 2 il |
| 1.1.3.4. | bir ağciyərin olmaması | | 50 | müddətsiz |
| 1.1.4.1-1. | tənəffüs orqanlarının funksiyasının əhəmiyyətli dərəcə pozuntusu - ağciyər sarkoidozu (və ya) limfa düyünləri sarkoidozu ilə III dərəcə ağciyər sarkoidozu, fəal mərhələ, II dərəcə tənəffüs çatışmazlığı ilə | | 65 -80 | 5 il |
| 1.1.7.1-1. | IIB-III dərəcə xroniki tənəffüs çatışmazlığı ilə müşayiət olunan tənəffüs orqanlarının vəreminin və dəqiqləşdirilməmiş vərəmin gecikmiş fəsadları (bronxoektaziya, fibroz, fibrozlu-ocaqlı, bullozdistrofik, kalsinatlar, plevropnevmoskleroz, sirroz, cərrahi müdaxilə nəticələri) | | 65-80 | 2 il |

2.1.5. 1.1.2-ci yarımbəndin ikinci-beşinci abzasları, 1.1.9-cu, 1.1.9.1-1.1.9.3-cü yarımbəndlər ləğv edilsin;

2.1.6. 1.1.2.2-ci və 1.1.2.3-cü yarımbəndlərin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

2.1.7. 1.1.3-cü yarımbəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | ağciyərin qazanılma olmaması (və ya hissəsinin) | Z90.2 | | |

2.1.8. 1.1.4.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütunundan "(III)" rəqəmi çıxarılsın;

2.1.9. 1.1.5.1-ci və 1.1.6.1-ci yarımbəndlərin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "I-II" rəqəmləri "I-IIA" sözləri ilə əvəz edilsin;

2.1.10. 1.1.6.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "II-III" rəqəmləri "IIB-III" sözləri ilə əvəz edilsin;

2.1.11. 1.1.6.4-cü yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "AÜÇ II-III dərəcə" sözləri "II-III dərəcə xroniki ağciyər-ürək çatışmazlığı ilə" sözləri ilə əvəz edilsin;

2.1.12. 1.1.7.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "II" rəqəmi "I-IIA" sözləri ilə əvəz edilsin;

2.1.13. 1.1.8-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | miliar vərəm | A19 | | |
| | tənəffüs orqanlarının vərəmi və dəqiqləşdirilməmiş vərəmin uzaq nəticələri | B90.9 | | |

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.1-ci, 2.2-ci, 2.5-ci və 2.9-cu bəndlər, 2.6.1.1-2.6.1.3-cü, 2.6.2.1-ci və 2.7.1-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.1. | Qan təzyiqinin yüksək olması ilə səciyyələnən xəstəliklər | I10-I15 | | |
| | Serebrovaskulyar xəstəliklər | I60-I69 | | |
| | Qiymətləndirmə | | | |
| 2.1.1. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının mülayim pozulması (zədələnməsi) ilə | | 35-60 | 1 il |
| 2.1.2. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının ciddi pozulması (zədələnməsi) ilə | | 65-80 | 2 il |
| 2.1.3. | arterial hipertenziya I-III dərəcə, hipertoniya xəstəliyi III mərhələ, hədəf orqanların funksiyalarının ağır pozulması (zədələnməsi) ilə | | 85-100 | müddətsiz |
| 2.2. | Ürəyin işemik xəstəliyi | I20 - I25 | | |
| | Qiymətləndirmə | | | |
| 2.2.1. | ÜDS-nin mülayim disfunksiyası: stenokardiya və ya ağrısız işemiya FS III (50 Vatt və ya 2-3,9 METs); XÜÇ IIA mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 35-60 | 1 il |
| 2.2.2. | ÜDS-nin ciddi disfunksiyası: stenokardiya və ya ağrısız işemiya, FS III (50 Vatt və ya 2-3,9 METs); XÜÇ IIB mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 65-80 | 2 il |
| 2.2.3. | ÜDS-nin ağır və davamlı disfunksiyası: stenokardiya və ya ağrısız işemiya, FS lV (25 Vatt və ya 1,1-1,9 METs); XÜÇ III mərhələ olduqda. Miokardın revaskulyarizasiyası mümkün olmadıqda | | 85-100 | müddətsiz |
| 2.5. | Ağciyər-ürək çatışmazlığının digər formaları | l27 | | |
| | Qiymətləndirmə | | | |
| 2.5.1. | effektiv spesifik terapiya fonunda orqanizmin funksiyalarının orta dərəcəli pozulmaları (mülayim disfunksiyaları): ağciyər hipertenziyası FS II | | 35-60 | 1 il |
| 2.5.2. | effektiv spesifik terapiya fonunda orqanizmin funksiyalarının əhəmiyyətli pozulmaları (ciddi disfunksiyaları): ağciyər hipertenziyası FS III | | 65-80 | 2 il |
| 2.5.3. | effektiv spesifik terapiya fonunda orqanizmin funksiyalarının ağır və davamlı disfunksiyaları: ağciyər hipertenziyası FS IV | | 85-100 | müddətsiz |
| 2.6.1.1. | IIB dərəcəli işemiya, seqmentar okklüziya və ya stenozun (65%-dən çox) mövcudluğu ilə, ABİ 0,75-0,50 aralığında olduqda | | 35-60 | 1 il |
| 2.6.1.2. | III dərəcəli işemiya, ABİ 0,50-dən az olduqda və ya cərrahi revaskularizasiyadan sonra davamlı distal blokun mövcudluğu, ətrafın məhdud trofik pozuntuları (xora, nekroz) və qan dövranı dekompensasiyası ilə | | 65-80 | 2 il |
| 2.6.1.3. | ikitərəfli trofik pozuntular da daxil olmaqla III və ya IV dərəcə işemiya, ABİ 0,25-dən az olduqda cərrahi müdaxilə üçün əks-göstərişlərin mövcudluğu və ya aşağı ətrafın müxtəlif səviyyədə aputasiyası, digər ətrafda III və ya IV dərəcə işemiya | | 90-100 | müddətsiz |
| 2.6.2.1. | kliniki təzahürlərin mövcudluğu ilə aortanın və (və ya) çanağın iri arteriyalarının "böyük" anevrizmaları (5 smdən çox), cərrahi müalicəyə tibbi əks-göstərişlərin olması və ya "Böyük" anevrizmaların rezeksiyasından, aortanın və çanağın iri arteriyalarının protezləşdirilməsindən və ya stent qreftlərin implantasiyasından sonrakı vəziyyət, qan dövranı subkompensasiyası ilə; baş və boyun nahiyələrinin iri ölçülü, üzü eybəcərləşdirən, cərrahi müalicəyə əks-göstərişin olması | | 35-60 | 2 il |
| 2.7.1. | hər iki aşağı ətrafda IIB venoz çatışmazlığı və ya bir aşağı ətrafda trofik xora olan xroniki venoz xəstəliyi və ya xroniki venoz xəstəliklərinin beynəlxalq təsnifatının (CEAP sistemi) 4-5-ci sinif klinik təzahürlərinə uyğun gələn, hər iki ətrafda əhəmiyyətli miqdarda ifrazat olmayan xoralı qüsur və ya trofik pozuntuları olan; xoralı olmayan, statodinamik funksiyaların orta dərəcədə (mülayim) pozulması ilə xroniki venoz xəstəliklərinin beynəlxalq təsnifatının (CEAP sistemi) 4-5-ci siniflərinə uyğun gələn hər iki ətrafda zədələnmə | | 35-60 | 2 il |
| 2.9. | Xroniki revmatik xəstəlikləri | I05 - I09 | | |
| | Digər ürək xəstəlikləri | I30 - I52 | | |
| | Qiymətləndirmə | | | |
| 2.9.1. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının mülayim pozulması ilə: FS III (50 Vatt və ya 2-3,9 METs), XÜÇ IIA mərhələ, ağciyər hipertenziyası 2-ci dərəcə, 2-ci dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının azalması | | 35-60 | 2 il |
| 2.9.2. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının ciddi pozulması ilə: FS III (50 Vatt və ya 2-3,9 METs), XÜÇ IIB mərhələ, ağciyər hipertenziyası 2-3-cü dərəcə, 3-cü dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının azalması | | 65-80 | 2 il |
| 2.9.3. | ürəyin qapağının (və ya qapaqlarının), ağciyər arteriyası qapağının revmatik və qeyri-revmatik xəstəlikləri, iltihabi aktivlik əlamətləri olan miokardit, endokardit və ya perikardit, ÜDS-nin funksiyasının ağır və davamlı pozulması ilə: FS IV (25 Vatt və ya 1,1-1,9 METs), XÜÇ III mərhələ, ağciyər hipertenziyası 3-cü dərəcə, 4-5-ci dərəcə ürək aritmiyası (Laun-Volf təsnifatı üzrə), sol mədəciyin atım fraksiyasının 30%-dən az olması | | 85-100 | müddətsiz |

2.2.2. 2.3-cü bəndin birinci abzası ləğv edilsin və həmin bəndin on birinci abzası aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Süni ürək ritmi aparıcısının olması | Z95.0 | | |

2.2.3. 2.3.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ IIA mərhələ" sözlərindən əvvəl "FS III," sözləri əlavə edilsin;

2.2.4. 2.3.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ IIB mərhələ" sözlərindən əvvəl "FS III," sözləri əlavə edilsin;

2.2.5. 2.3.3-cü yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "XÜÇ III mərhələ" sözlərindən əvvəl "FS IV," sözləri əlavə edilsin;

2.2.6. aşağıdakı məzmunda 2.3.4-cü, 2.3.5-ci, 2.4.4-cü yarımbəndlər və 2.10-cu bənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.3.4. | ürək ritminin süni tənzimləyicisi qoyulduğu hallarda ürək qüsurları və ya miokardda baş vermiş dərin dəyişikliklər | | 80 | müddətsiz |
| 2.3.5. | ürək ritminin süni tənzimləyicisi qoyulduğu hallarda | | 50 | müddətsiz |
| 2.4.4. | miokardda yad cismin olması | | 80 | müddətsiz |
| 2.10. | Qan dövranı sisteminin anadangəlmə inkişaf qüsurları | Q20-Q28 | | |
| | Qiymətləndirmə | | | |
| 2.10.1. | 18 yaşınadək şəxslərdə XÜÇ I mərhələ və ya cüzi hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 50 | 2 il |
| 2.10.2. | 18 yaşınadək şəxslərdə XÜÇ II mərhələ və ya nəzərəçarpan hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 70 | 2 il |
| 2.10.3. | 18 yaşınadək şəxslərdə XÜÇ III mərhələ və ya əhəmiyyətli dərəcədə nəzərəçarpan hipoksemiya ilə fəsadlaşmış anadangəlmə qüsurlar | | 90 | 2 il |

2.2.7. 2.4-cü bəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Yumşaq toxumalarda qalmış yad cisim | M79.5 | | |

2.2.8. 2.6-cı bəndin "XBT-10 (kod)" sütunundan "I70-I79" sözləri çıxarılsın;

2.2.9. 2.6.1-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | arteriyaların tromboz və emboliyası | I74 | | |

2.2.10. 2.6.2-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü-səkkizinci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | arteriya və arteriolların digər zədələnmələri | I77 | | |
| | kapilyarların xəstəlikləri | I78 | | |
| | digər rubrikalarda təsnif olunmuş xəstəliklərdə arteriyaların, arterialların və kapilyarların zədələnmələri | I79 | | |
| | periferik damar sisteminin digər anadangəlmə anomaliyaları | Q27 | | |
| | qan-damar sisteminin digər anadangəlmə inkişaf qüsurları | Q28 | | |
| | bədənin dəqiqləşdirilməmiş nahiyəsinin qan damarının (damarlarının) travması | T14.5 | | |

2.2.11. 2.6.2.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "/ və ya" sözləri "(və ya)" sözləri ilə və nöqtəli vergül işarəsi "və ya" sözləri ilə əvəz edilsin;

2.2.12. 2.7-ci bəndə aşağıdakı məzmunda ikinci-beşinci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Periferik damar sisteminin digər anadangəlmə anomaliyaları | Q27 | | |
| | Qan-damar sisteminin digər anadangəlmə inkişaf qüsurları | Q28 | | |
| | Bədənin dəqiqləşdirilməmiş nahiyəsinin qan damarının (damarlarının) travması | T14.5 | | |
| | Aşağı ətraf venalarının varikoz genəlməsi | l83 | | |

2.2.13. 2.8-ci bəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | Filyariatoz | B74 | | |
| | İrsi limfedema | Q82.0 | | |

2.2.14. 2.8.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "hər iki ətraflarda" sözləri "iki ətrafda" sözləri ilə əvəz edilsin;

2.2.15. 2.8.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "hər iki aşağı" sözləri "iki" sözü ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3.1.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | damağın yarığı (qurd ağzı) | Q35 | | |
| | dodağın və damağın yarığı (qurd ağzı dovşan dodaqla) | Q37 | | |

2.3.2. 3.1.1.2-ci və 3.1.1.3-cü yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "40" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin;

2.3.3. 3.3-cü bənd, 3.1.1.6-cı, 3.2.1.1-ci, 3.2.2.1-ci, 3.2.2.2-ci, 3.2.3.1-ci, 3.2.3.2-ci, 3.2.4.1-ci, 3.2.4.2-ci, 3.2.5-ci, 3.2.5.1-ci, 3.2.5.2-ci, 3.4.1.1-ci, 3.4.1.2-ci, 3.6.1-ci, 3.6.2.1-ci və 3.6.2.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 3.1.1.6. | müalicənin başa çatmasına qədər (əməliyyatdan bir il sonra) və ya müalicə (əməliyyat) olunmamış çənə yarığı olmadan damağın tam yarığı, dodağın və damağın tam yarığı ilə müşahidə olunan hal | | 35 | 2 il |
| 3.2.1.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun çətinləşməsi, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal, nadir baş verən aspirasiyalarla | | 35-60 | 1 il |
| 3.2.2.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun pozulması (qida həcminin məhdudlaşması, qida qəbulu vaxtının uzanması), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 40-60 | 1 il |
| 3.2.2.2. | həzm funksiyasının təzahür edən (nəzərəçarpan) pozulması ilə - qida qəbulunun pozulması, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.2.3.1. | həzm funksiyasının mülayim pozulması ilə - qida qəbulunun pozulması (qida həcminin məhdudlaşması, qida qəbulu vaxtının uzanması), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 40-60 | müddətsiz |
| 3.2.3.2. | həzm funksiyasının təzahür edən pozulması ilə - qida qəbulunun pozulması, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | müddətsiz |
| 3.2.4.1. | həzm funksiyasının mülayim pozulması - xəstəliyin orta ağır forması, xroniki təkrarlanan, bir ildən az müddətdə residivləşən xora, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 1 il |
| 3.2.4.2. | həzm funksiyasının təzahür edən pozulması - xəstəliyin ağır forması, xroniki təkrarlanan xora, ildə 2-3 dəfə kəskinləşmələrlə (məsələn, mədə keçidinin stenozu), III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.2.5. | mədənin və mədə hissəsinin qazanılma olmaması | Z90.3 | | |
| | həzm orqanlarının başqa rubrikalarda təsnif olunmayan, tibbi prosedurlardan sonra baş verən pozuntuları | K91 | | |
| | həzm orqanlarının digər xəstəlikləri | K92 | | |
| | qastrostomanın olması | Z93.1 | | |
| | Qiymətləndirmə | | | |
| 3.2.5.1. | mədənin hissəvi rezeksiyası və ya total qastroektamiya əməliyyatından sonra həzm funksiyasının mülayim pozulması - orta dərəcəli əməliyyat olunmuş mədə sindromlu qastroenteroanastomoz (dempinq sindrom və ya gətirici bağırsaq ilgəyi sindromu), nazik bağırsağın residivləşən xoraları, II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 1 il |
| 3.2.5.2. | mədənin total qastroektamiya əməliyyatından sonra həzm funksiyasının təzahür edən (ağır) dərəcədə pozulması - ağır dərəcəli əməliyyat olunmuş mədə sindromlu qastroentero-anastomoz (dempinq sindrom və ya gətirici bağırsaq ilgəyi sindromu), nazik bağırsağın residivləşən xoraları, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.3. | Qeyri-infeksion enterit və kolit | K50-K52 | | |
| | Seliakiya | K90.0 | | |
| | Qiymətləndirmə | | | |
| 3.3.1. | həzm funksiyasının mülayim pozulması - xəstəliklərin orta ağır təzahürü, tez-tez ishal (gündə 4-6 dəfə), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 2 il |
| 3.3.2. | həzm funksiyasının qabarıq pozulması - xəstəliklərin ağır təzahürü, tez-tez gündəlik ishal (gündə 7-10 dəfə, o cümlədən gecə), qabarıq dərəcəli anemiya, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |
| 3.4.1.1. | həzm funksiyasının mülayim pozulması - orta ağır təzahür, tez-tez ishal (gündə 4-6 dəfə), II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 2 il |
| 3.4.1.2. | həzm funksiyasının qabarıq pozulması - ağır təzahür, tez-tez gündəlik ishal (gündə 7-10 dəfə, o cümlədən gecə), qabarıq dərəcəli anemiya, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | müddətsiz |
| 3.6.1. | qaraciyərin, öd kisəsinin və öd axacaqlarının anadangəlmə inkişaf qüsurları | Q44 | | |
| | həzm orqanlarının digər anadangəlmə inkişaf qüsurları | Q45 | | |

*Ardı 8-ci səh.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 235 QƏRAR Bakı şəhəri, 20 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda dəyişiklik edilməsi haqqında

*Əvvəli 7-ci səh.*

| | | | | |
|---|---|---|---|---|
| 3.6.2.1. | orta ağır gedişli, ildə 4-5 dəfəyə qədər kəskinləşmələr, həzm sisteminin funksiyasının mülayim pozulması II dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-17,5) və anemiya ilə müşahidə olunan hal | | 35-60 | 2 il |
| 3.6.2.2. | ağır gedişat, tez-tez kəskinləşmələr ildə 6-7 dəfə, həzm sisteminin funksiyasının aşkar pozuntusu, III dərəcə zülal-enerji çatışmazlığı (BKİ 16,0-dan az) və anemiya ilə müşahidə olunan hal | | 65-80 | 2 il |

2.3.4. 3.1.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | dilin, ağızın və udlağın digər anadangəlmə inkişaf qüsurları | Q38 | | |

2.3.5. aşağıdakı məzmunda 3.1.2.2-ci, 3.2.5.3-cü, 3.4.1.3-3.4.1.7-ci yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 3.1.2.2. | dilin olmaması | | 65 | müddətsiz |
| 3.2.5.3. | 16 yaşınadək şəxslərdə cərrahi əməliyyatdan sonra uzunmüddətli sağalma və reabilitasiya müalicəsi tələb olunan hallar | | 40 | 2 il |
| 3.4.1.3. | ileostoma və ya kolostomanın olması | | 80 | 1 il |
| 3.4.1.4. | bərpası mümkün olmayan (imkansız) ileostoma və ya kolostomanın olması | | 80 | müddətsiz |
| 3.4.1.5. | anal sfinkterin çatışmazlığı, lll dərəcə | | 80 | 2 il |
| 3.4.1.6. | fistulun mövcudluğu | | 50 | 1 il |
| 3.4.1.7. | bərpası mümkün olmayan və ya cərrahi müalicəsinə tibbi əks-göstəriş olan fistulun mövcudluğu | | 65 | müddətsiz |

2.3.6. 3.2.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | qida borusunun anadangəlmə inkişaf qüsurları | Q39 | | |
| | həzm traktının yuxarı hissəsinin digər anadangəlmə inkişaf qüsurları | Q40 | | |

2.3.7. 3.2.3-cü yarımbəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | həzm traktının yuxarı hissəsinin digər anadangəlmə inkişaf qüsurları | Q40 | | |

2.3.8. 3.4.1-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü-doqquzuncu abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | nəcisi saxlaya bilməmək | R15 | | |
| | kolostomiya və ya enterostomiyadan sonra yaranan disfunksiya | K91.4 | | |
| | ileostomanın olması | Z93.2 | | |
| | kolostomanın olması | Z93.3 | | |
| | nazik bağırsağın anadangəlmə olmaması, atreziyası və stenozu | Q41 | | |
| | yoğun bağırsağın anadangəlmə olmaması, atreziyası və stenozu | Q42 | | |
| | bağırsağın digər anadangəlmə inkişaf qüsurları | Q43 | | |

2.3.9. 3.5.1-ci yarımbəndin üçüncü, dördüncü və altıncı-səkkizinci abzasları, 3.7.1-ci yarımbəndin birinci-dördüncü abzasları ləğv edilsin;

2.3.10. 3.5.2-ci yarımbəndin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| | qaraciyərin toksiki zədələnməsi | K71 | | |

2.3.11. 3.7.1.1-ci və 3.7.1.2-ci yarımbəndlərin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda birinci abzasdan nöqtəli vergül işarəsi çıxarılsın, ikinci və üçüncü abzaslar ləğv edilsin;

2.4. 4-cü hissə üzrə:

2.4.1. 4.1.1-ci, 4.1.1.1-4.1.1.4-cü, 4.1.2.1-ci, 4.1.3.1-ci, 4.1.3.4-cü və 4.1.4.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 4.1.1. | xroniki nefritik sindrom | N03 | | |
| | nefrotik sindrom | N04 | | |
| | digər rubrikalarda təsnif olunan xəstəliklər zamanı yumaqcıq zədələnmələri | N08* | | |
| | böyrəklərin tubulointerstisial xəstəlikləri | N10-N16 | | |
| | XBX | N18 | | |
| | dəqiqləşdirilməmiş böyrək çatışmazlığı | N19 | | |
| | böyrəyin kistoz xəstəliyi | Q61 | | |
| | böyrəyin digər anadangəlmə anomaliyaları | Q63 | | |
| | amiloidoz | E85 | | |
| | Qiymətləndirmə | | | |
| 4.1.1.1. | XBX II mərhələ (XBÇ I mərhələ qanda kreatinin səviyyəsi 123-176 mkmol/l aralığında) (18 yaşınadək şəxslərdə YFS 89-60 ml/dəq/1,73$m^2$) | | 40 | 1 il |
| 4.1.1.2. | XBX III mərhələ (XBÇ II mərhələ qanda kreatinin səviyyəsi 177-352 mkmol/l aralığında) (18 yaşınadək şəxslərdə YFS 59-30 ml/dəq/1,73$m^2$) | | 65-80 | 2 il |
| 4.1.1.3. | XBX IV mərhələ (XBÇ III mərhələ qanda kreatinin səviyyəsi 352-528 mkmol/l aralığında) (18 yaşınadək şəxslərdə YFS 29-15ml/dəq/1,73$m^2$) | | 85-90 | müddətsiz |
| 4.1.1.4. | XBÇ V mərhələ, terminal mərhələ, (qanda kreatinin səviyyəsi 528 mkmol/l-dən çox) (18 yaşınadək şəxslərdə YFS 15ml/dəq/1,73$m^2$-dən az) | | 95-100 | müddətsiz |
| 4.1.2.1. | XBÇ V mərhələ, terminal mərhələ (qanda kreatinin səviyyəsi 528 mkmol/l-dən çox), proqramlı hemodializ | | 95-100 | müddətsiz |
| 4.1.3.1. | nefrektomiya nəticəsində və ya anadangəlmə bir böyrəyin olmaması, XBÇ I mərhələ | | 50 | müddətsiz |
| 4.1.3.4. | tək böyrəyin zədələnməsi, XBÇ V mərhələ, terminal mərhələ | | 100 | müddətsiz |
| 4.1.4.2. | böyrək köçürülməsindən 2 il sonra, funksional vəziyyətindən asılı olaraq | | 70-80 | müddətsiz |

2.4.2. 4.1.2-ci yarımbəndin birinci və ikinci abzasları, 4.1.3-cü yarımbəndin üçüncü və dördüncü abzasları, 4.2.2-ci yarımbəndin ikinci-doqquzuncu abzasları ləğv edilsin;

2.4.3. 4.1.6-cı yarımbəndə aşağıdakı məzmunda səkkizinci və doqquzuncu abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | böyrək ləyənin keçiriciliyinin anadangəlmə pozuntusu və sidik axarının anadangəlmə anomaliyaları | Q62 | | |
| | sidik sisteminin digər anadangəlmə anomaliyaları | Q64 | | |

2.4.4. 4.1.6.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "kateterdən" sözündən əvvəl "müşayiət edən fəsadlaşmalar olmadan" sözləri əlavə edilsin və həmin yarımbənddən "müşayiət edən fəsadlaşmalar olmadan;" sözləri çıxarılsın;

2.4.5. 4.1.6.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda nöqtəli vergül işarəsi vergül işarəsi ilə əvəz edilsin;

2.4.6. aşağıdakı məzmunda 4.1.6.3-cü yarımbənd və 4.3-cü bənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 4.1.6.3. | sistostomanın olması və ya sidik traktının süni dəliyinin olması | | 80 | 1 il |
| 4.3. | Sidik cinsiyyət orqanlarının vərəminin uzaq nəticələri | B90.1 | | |
| | Qiymətləndirmə | | | |
| 4.3.1. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının mülayim dərəcədə geridönməz pozulması | | 35-60 | 1 il |
| 4.3.2. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının təzahür edən dərəcədə geridönməz pozulması | | 65-80 | 2 il |
| 4.3.3. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının əhəmiyyətli dərəcədə geridönməz pozulması | | 85-100 | müddətsiz |

2.4.7. 4.1.7.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "əhəmiyyətli dərəcədə" sözləri "ağır" sözü ilə əvəz edilsin;

2.4.8. 4.1.7.2-ci yarımbənd 4.1.7.3-cü yarımbənd hesab olunsun və aşağıdakı məzmunda 4.1.7.2-ci yarımbənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 4.1.7.2. | ifrazetmə funksiyasının ciddi pozulması - sidik saxlamamanın ağır dərəcəsi (8 saat ərzində 600 ml və daha çox), sidik ifrazı çağırışının və sidiyin kanaldan keçmə hissinin olmaması, sistometriya zamanı detruzorun hipotoniyası zamanı sidik kisəsinin həcmi 500-600 ml, qalıq sidik 400 ml-ə qədər, detruzorun hipertoniyası zamanı həcmi 20-30 ml | | 65-80 | 2 il |

2.4.9. 4.1.8.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "edilməsi imkanı ilə" sözləri "edilməsinin mümkün olması zamanı" sözləri ilə əvəz edilsin;

2.5. 5-ci hissə üzrə:

2.5.1. 5.1.1-ci yarımbəndin birinci-beşinci, yeddinci-doqquzuncu, on ikinci və on üçüncü abzasları, 5.2.2.4-cü yarımbənd və 5.3.1-ci yarımbəndin ikinci-yeddinci, doqquzuncu-on beşinci, on yeddinci-iyirmi üçüncü abzasları ləğv edilsin;

2.5.2. 5.1.1.1-5.1.1.3-cü yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması müddəti" sütununda "müddətsiz" sözü "2 il" sözləri ilə əvəz edilsin;

2.5.3. aşağıdakı məzmunda 5.1.1-1-ci, 5.1.1-1.1-5.1.1-1.3-cü, 5.1.5.3-cü, 5.1.7-ci, 5.1.7.1-5.1.7.3-cü yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 5.1.1-1. | talassemiya | D56 | | |
| | orağabənzər hüceyrə pozuntuları | D57 | | |
| | digər irsi hemolitik anemiyalar | D58 | | |
| | digər aplastik anemiyalar | D61 | | |
| | Qiymətləndirmə | | | |
| 5.1.1-1.1. | qanəmələgəlmə funksiyasının mülayim pozulması ilə, tələb olunanda dövri qan köçürmələrlə | | 35-60 | müddətsiz |
| 5.1.1-1.2. | qanəmələgəlmə funksiyasının qabarıq nəzərəçarpan və ya ağır pozulması ilə, tez-tez (hər ay) qanköçürməyə ehtiyacla | | 65-80 | müddətsiz |
| 5.1.1-1.3. | qanəmələgəlmə funksiyasının əhəmiyyətli dərəcədə təzahür edən pozulması ilə, uzunmüddətli, tez-tez (ayda bir neçə dəfə) qanköçürməyə ehtiyacla | | 85-100 | müddətsiz |
| 5.1.5.3. | qanın laxtalanma funksiyasının ağır dərəcədə pozulması - ağır forma, tez-tez (ildə 5-6 dəfə) stasionar şəraitdə qarşısının alınmasını tələb edən qanaxma halları, hemofiliya zamanı defisitli laxtalanma amilinin fəallıq dərəcəsi 1%-dən az, oynaqlara və (və ya) daxili orqanlara ildə 4 dəfə və daha çox qansızma | | 85-100 | müddətsiz |
| 5.1.7. | allergik purpura | D69.0 | | |
| | idiopatik trombositopenik purpura | D69.3 | | |
| | ikincili trombositopeniya | D69.5 | | |
| | dəqiqləşdirilməmiş trombositopeniya | D69.6 | | |
| | Qiymətləndirmə | | | |
| 5.1.7.1. | qanın laxtalanma funksiyasının mülayim pozulması - orta ağır forma, nadir baş verən qanaxmalarla (ildə 3 dəfədən çox olmayaraq) | | 40-60 | 2 il |
| 5.1.7.2. | qanın laxtalanma funksiyasının təzahür edən pozulması - ağır forma, tez-tez (ildə 3-4 dəfə) stasionar şəraitdə qarşısının alınmasını tələb edən qanaxma halları | | 70-80 | 2 il |
| 5.1.7.3. | qanın laxtalanma funksiyasının əhəmiyyətli dərəcədə təzahür edən pozulması - ağır forma, qanaxmalara meyilli (həyat üçün təhlükəli qəfil qanaxmalar) | | 90-100 | 2 il |

2.5.4. 5.1.4.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "vaxtaşırı" sözü "dövri" sözü ilə əvəz edilsin;

2.5.5. 5.1.6-cı, 5.2.2.1-5.2.2.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 5.1.6. | laxtalanmanın digər pozuntuları | D68 | | |
| | trombositlərin keyfiyyət qüsurları | D69.1 | | |
| | digər qeyri-trombositopenik purpura | D69.2 | | |
| | digər birincili trombositopeniyalar | D69.4 | | |
| | digər dəqiqləşdirilmiş hemorragik vəziyyətlər | D69.8 | | |
| | dəqiqləşdirilməmiş hemorragik vəziyyət | D69.9 | | |
| 5.2.2.1. | İİÇV-infeksiya. Persistedici generalizə olunmuş limfadenopatiya. ikincili xəstəliklər mərhələsi (mərhələ 2):<br>- izah olunmayan arıqlama (çəkinin 5-10% itirilməsi);<br>- ağız boşluğunun tüklü leykoplakiyası; - anqulyarxeylit; - onixomikozlar;<br>- papulyoz - (düyünlü) qaşınan səpgi;<br>- residivləşən aftoz stomatit (son 6 ay ərzində iki dəfə və ya daha çox);<br>- seboreya dermatiti; - tənəffüs yollarının residivləşən infeksiyaları (istənilən 6 ay ərzində iki dəfə və ya daha çox sinusit, orta qulaq otiti, bronxit, faringit və ya traxeit halı);<br>- kəmərləyici dəmrov; - təkrarlanan faringitlər, sinusitlər, proqressivləşmə mərhələsi (əməyin ağırlığının və xüsusiyyətlərinin nəzərə alınması ilə) | | 35-60 | müddətsiz |
| 5.2.2.2. | İİÇV-infeksiya. Dərin zədələnmə xarakterli ikincili xəstəliklər mərhələsi (mərhələ 3):<br>- normal bədən kütləsinin 10-15%-nin itirilməsi, izah olunmayan ishal və ya hərarət 1 aydan çox;<br>- ağciyər vərəmi;<br>- ağız boşluğun kandidozu;<br>- hematoloji pozuntular: izah olunmayan anemiya, neytropeniya, trombositopeniya;<br>- ağır bakterial infeksiyalar (məsələn, pnevmoniya, plevranın empiyeması, piomiozit, sümük və oynaqların infeksiyası, meningit, bakteriemiya);<br>- daxili orqanların təkrarlanan və ya davamlı virus, bakterial, göbələk, protozoal zədələnmələri;<br>- kəskin xoralı-nekrotik stomatit, gingivit və ya periodontit | | 65-80 | müddətsiz |
| 5.2.2.3. | İİÇV-infeksiya. Ağır, həyata təhlükə yaradan ikincili (opportunistik) xəstəliklər mərhələsi (mərhələ 4):<br>- kaxeksiya;<br>- sadə Herpes virusu törədən infeksiyalar: daxili üzvlərin zədələnməsi ilə və ya dəri və selikli qişaların xronik xorası (1 aydan artıq persistə edən);<br>- qida borusu və ya aşağı tənəffüs yollarının kandidozu; - sitomeqaloviruslu retinit, kolit, ezofagit;<br>- disseminə olunmuş göbələk infeksiyaları (məsələn, kandidoz, koksidiomikoz, histoplazmoz);<br>- leyşmanioz-visseral (disseminə olunmuş);<br>- İİÇV ensefalopatiyası; - proqressivləşən multifokal leykoensefalopatiya;<br>- toksoplazmoz;<br>- mərkəzi sinir sisteminin zədələnməsi, retinit;<br>- kriptokokkoz - ağciyərdən kənar (meningit daxil olmaqla);<br>- xronik kriptosporidioz (1 aydan artıq diareya);<br>- xronik izosporiaz (1 aydan artıq çəkən hərarət);<br>- generalizə olunmuş bakterial virus, göbələk və parazitar xəstəliklər;<br>- pnevmosistpnevmoniya;<br>- qida borusu, bronxların, ağciyərin kandidozu;<br>- residivləşən ağır və ya rentgenoloji olaraq təsdiqlənmiş bakterial pnevmoniya (il ərzində iki dəfə və ya daha çox);<br>- ağciyərdən kənar vərəm; - atipikmikobakteriozlar;<br>- müxtəlif etiologiyalı mərkəzi sinir sisteminin zədələnmələri | | 85-100 | müddətsiz |

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci və 6.10-cu bəndlər, 6.2.2-ci yarımbənd, 6.3.1-ci yarımbəndin ikinci abzası, 6.3.1.1-ci, 6.6.1.1-ci, 6.6.2.1-6.6.2.3-cü, 6.6.3.3-cü, 6.7.1-ci və 6.7.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 6.1. | Başın travmaları | S02-S09 | | |
| | Baş və boynun açıq yaraları | T01.0 | | |
| | Baş və boyun nahiyəsinin sınıqları | T02.0 | | |
| | Baş beynin və kəllə sinirlərinin, onurğa beynin və boyun səviyyəsində digər sinirlər ilə müştərək travmaları | T06.0 | | |
| | Başın travmalarının nəticələri | T90 | | |
| | Yumşaq toxumalarda qalmış yad cisim | M79.5 | | |
| | Anensefaliya və buna oxşar inkişaf qüsurları | Q00 | | |
| | Ensefalosele | Q01 | | |
| | Mikrosefaliya | Q02 | | |
| | Anadangəlmə hidrosefaliya | Q03 | | |
| | Beynin digər anadangəlmə inkişaf qüsurları | Q04 | | |
| | Spina bifida | Q05 | | |
| | Onurğa beynin digər anadangəlmə inkişaf qüsurları | Q06 | | |
| | Sinir sisteminin digər anadangəlmə inkişaf qüsurları | Q07 | | |
| | Kəllə və üz sümüklərinin digər anadangəlmə inkişaf qüsurları | Q75 | | |
| | Vegetativ (avtonom) sinir sisteminin pozuntuları | G90 | | |
| | Hidrosefaliya | G91 | | |
| | Toksiki ensefalopatiya | G92 | | |
| | Qiymətləndirmə | | | |
| 6.1.1. | ümumi beynin mülayim pozuntuları ilə baş beynin əzilməsi, kontuziyası | | 40-60 | 1 il |
| 6.1.2. | ümumi beynin təzahür edən pozuntuları ilə baş beynin əzilməsi, kontuziyası | | 65-80 | 2 il |
| 6.1.3. | baş beynin əzilməsi, kontuziyası | | 35 | 1 il |
| 6.1.4. | psixi təzahür edən pozuntularla baş beynin əzilməsi, kontuziyası | | 65-80 | 2 il |
| 6.1.5. | vegeto-damar mülayim pozuntuları ilə baş beynin əzilməsi, kontuziyası | | 40 | 1 il |
| 6.1.6. | vegeto-damar təzahür edən pozuntuları ilə baş beynin əzilməsi, kontuziyası tez-tez baş verən paroksizmal vəziyyətlərlə (gündəlik tutmalar) və (və ya) ümumi vəziyyətə təzahür edən təsirlə | | 50-60 | 2 il |
| 6.1.7. | beyin maddəsində yad cismin olması | | 80 | müddətsiz |
| 6.1.8. | ventrikuloperitoneal şuntlama | | 50 | 2 il |
| 6.1.9. | anadangəlmə inkişaf qüsurlarının ağır formalarında | | 90 | müddətsiz |
| 6.1.10. | müvazinətin və koordinasiyanın pozulması, vestibulopatiya ilə nəticələnən mərkəzi sinir sisteminin üzvi mənşəli zədələnməsi (posttravmatik, damar, degenerativ-distrofik) | | | |
| | Hentinqton xəstəliyi | G10 | | |
| | irsi ataksiya | G11 | | |
| | sinir və sümük-əzələ sisteminə aid olan simptomlar və nişanələr | R25-R29 | | |
| | Qiymətləndirmə | | | |
| 6.1.10.1. | başgicəllənmə, koordinasiyanın və tarazlığın, iradi motorikanın mülayim pozuntusu, piramid çatışmazlıq əlamətləri, o cümlədən yürüşün və durmanın pozuntuları | | 35-60 | 1 il |
| 6.1.10.2. | başgicəllənmə, koordinasiyanın və tarazlığın, iradi motorikanın əhəmiyyətli pozuntusu, piramid çatışmazlıq əlamətləri, o cümlədən yürüşün və durmanın pozuntuları | | 65-80 | 2 il |
| 6.1.10.3. | başgicəllənmə, koordinasiyanın və tarazlığın, iradi motorikanın ağır dərəcədə pozuntusu, piramid çatışmazlıq əlamətləri, o cümlədən yürüşün və sərbəst durmanın itirilməsi | | 85-100 | müddətsiz |
| 6.2.2. | koqnitiv funksiyanın, eləcə də kortikal funksiyaların pozulması ilə müşahidə olunan sinir sistemi xəstəlikləri (nitq və səs (afaziya, apraksiya, aqnoziya formasında) pozuntuları ilə) | R47-R48 | | |
| | spinal əzələ atrofiyası və oxşar sindromlar | G12 | | |
| 6.3.1.1. | orta dərəcəli əzələ zəifliyi (əzələ gücünün 3-4 bala qədər azalması, 4-7 sm-lik əzələ hipotrofiyası, yuxarı və aşağı ətraf oynaqlarında aktiv hərəkətlərin amplitudasının çiyin oynağında 35-40 dərəcəyə, dirsəkdə 30-45 dərəcəyə, mil-bilək oynağında 30-40 dərəcəyə, bud-çanaq oynağında 15-20 dərəcəyə, diz oynağında 16-20 dərəcəyə, aşıqbaldırda 14-18 dərəcəyə qədər məhdudlaşması, xırda cisimlərin tutulmasının çətinləşməsi (böyük barmağın distal falanqasının 4-cü barmağın əsasına qədər çatması, barmaqların yumruğa yığılmasının məhdudlaşması - barmaqların distal falanqalarının ovuca 1-2 sm çatmaması) ilə), mülayim statodinamik pozuntular | | 35-60 | 2 il |
| 6.6.1.1. | ümumən, hərəkətin mülayim pozulması, dönmə zamanı tarazlığın pozulması (Hoehn və Yahr şkalası üzrə xəstəliyin III mərhələsi) | | 40-60 | 2 il |

*Ardı 9-cu səh.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 235

QƏRAR

Bakı şəhəri, 20 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda dəyişiklik edilməsi haqqında

*Əvvəli 9-cu səh.*

2.12. 12-ci hissə üzrə:

2.12.1. 12.2.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | bullyozepidermoliz | Q81 | | |

2.12.2. 12.2.1.1-ci yarımbəndin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "40" rəqəmləri "60" rəqəmləri ilə əvəz edilsin;

2.12.3. 12.5.1-ci, 12.5.1.1-ci, 12.7.5-ci, 12.7.5.1-ci, 12.7.5.2-ci, 12.7.6-cı və 12.7.6.1-ci yarımbəndlər ləğv edilsin;

2.12.4. 12.5.2.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "təzahür edən" sözlərindən əvvəl "aradan qaldırılması mümkün olmayan," sözləri əlavə edilsin;

2.12.5. 12.6.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | üzün xarici görünüşünə daha çox təsir göstərən anadangəlmə anomaliya sindromları | Q87.0 | | |

2.12.6. 12.7.2.1-ci yarımbəndin "Orqanizmin funksiyalarının pozulması müddəti" sütununda "1-2 il" sözləri "müddətsiz" sözü ilə əvəz edilsin;

2.12.7. 12.7.2.2-ci yarımbəndin "Orqanizmin funksiyalarının pozulması müddəti" sütununda "2-5 il" sözləri "müddətsiz" sözü ilə əvəz edilsin;

2.12.8. 12.7.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 12.7.8. | anadangəlmə anomaliyalar (inkişaf çatışmazlıqları), o cümlədən: | | | |
| | anadangəlmə ixtioz | Q80 | | |
| | bullyozepidermoliz | Q81 | | |
| | dərinin digər anadangəlmə inkişaf qüsurları | Q82 | | |
| | neyrofibromatoz | Q85.0 | | |
| | tuberoz skleroz | Q85.1 | | |
| | keratodermiya | L86* | | |
| | digər dermatitlər | L30 | | |

2.12.9. 12.7.8.1-ci yarımbəndin "Orqanizmin funksiyalarının pozulması müddəti" sütununda "2 il" sözləri "müddətsiz" sözü ilə əvəz edilsin;

2.13. 13-cü hissə üzrə:

2.13.1. 13.1.2-ci yarımbəndin "XBT-10 (kod)" sütununda "Q68.1-Q71.3" sözləri "Q68.1-Q71" sözləri ilə əvəz edilsin;

2.13.2. 13.1.2.2-ci yarımbəndin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "60" rəqəmləri "80" rəqəmləri ilə əvəz edilsin;

2.13.3. 13.2.2-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | bud sümüyü başının yuvenil osteoxondrozu | M91.1 | | |

2.13.4. 13.3-cü və 13.4-cü bəndlər, 13.1.3-cü, 13.6.1-ci və 13.6.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 13.1.3. | boynun, döş qəfəsinin, qarnın, belin aşağı hissəsinin, onurğanın bel şöbəsinin və çanağın travmaları | S10-S39 | | |
| | boyun və gövdə travmalarının nəticələri | T91 | | |
| 13.3. | Yuxarı ətrafın bir neçə nahiyəsinin travmatik amputasiyası | T05.0-T05.2 | | |
| | Yuxarı və aşağı ətrafın istənilən müştərək (istənilən səviyyələrdə) travmatik amputasiyası | T05.6 | | |
| | Yuxarı ətrafın əzilməsinin və travmatik amputasiyanın nəticələri | T92.6 | | |
| | Qol, bilək və əl nahiyəsinin toxumalarının nekrozlaşan donvurması | T34.4-T34.5 | | |
| | Yuxarı ətraf qurşağı və bazunun travmatik amputasiyası | S48 | | |
| | Saidin travmatik amputasiyası | S58 | | |
| | Bilək və əlin amputasiyası | S68 | | |
| | Artrozlar | M15-M19 | | |
| | Ətrafların digər qazanılma deformasiyaları | M21 | | |
| | Yuxarı ətrafı qısaldan defektlər | Q71 | | |
| | Oynağın ankilozu | M24.6 | | |
| | Hər iki yuxarı ətrafın (hər hansı səviyyədə) qazanılma olmaması | Z89.3 | | |
| | Qiymətləndirmə | | | |
| 13.3.1. | yuxarı və aşağı ətrafın müştərək amputasiyası | | 100 | müddətsiz |
| 13.3.2. | yuxarı ətrafin amputasiyası bazu oynağında bazu səviyyəsində və ya bazunun çox qısa güdülü, protezləşməyə və ya amputasiyadan 1 il sonra bərpa işlərinin (o cümlədən rekonstruktiv əməliyyata ehtiyac) aparılması üçün tibbi göstərişlərin olması ilə | | 80 | müddətsiz |
| 13.3.3. | yuxarı ətrafın bazu oynağı səviyyəsində və ya dirsək oynağından amputasiyası | | 70- | müddətsiz |
| 13.3.4. | said səviyyəsində amputasiya | | 70 | müddətsiz |
| 13.3.5. | biləyin amputasiyası | | 65 | müddətsiz |
| 13.3.6. | bilək oynağının funksional yararsız vəziyyətdə ankilozu | | 60 | müddətsiz |
| 13.3.7. | ağır dərəcəli bazu oynağının qeyri-stabilliyi, eləcə də laxlayan oynaq və daimi oynaq çıxıqları və ya bazu oynağının funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 65 | müddətsiz |
| 13.3.8. | bazu sümüyünün psevdoartrozu: qeyri-stabil | | 40 | 1 il |
| 13.3.9. | said sümüyünün psevdoartrozu: qeyri-stabil | | 35 | 1 il |
| 13.3.10. | funksional əlverişsiz vəziyyətdə dirsək oynağının ankilozu (60 dərəcədən az, 150 dərəcədən çox) | | 40 | müddətsiz |
| 13.3.11. | hər iki dirsək oynağının funksional əlverişsiz vəziyyətdə ankilozu (60 dərəcədən az, 150 dərəcədən çox) | | 70 | müddətsiz |
| 13.3.12. | laxlayan dirsək oynağı | | 40 | müddətsiz |
| 13.3.13. | hər iki bilək oynağının funksional əlverişsiz vəziyyətdə ankilozu | | 70 | müddətsiz |
| 13.3.14. | hər iki baş barmağın olmaması | | 40 | müddətsiz |
| 13.3.15. | baş barmaq daxil olmaqla, iki barmağın olmaması və ya funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 40 | müddətsiz |
| 13.3.16. | baş barmaq daxil olmaqla, üç barmağın olmaması və ya əlin tutma funksiyasının pozulmasına səbəb olan qüsurlu vəziyyətlər | | 50 | müddətsiz |
| 13.3.17. | bir əldə ardıcıl üç barmağın olmaması və ya funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 40 | müddətsiz |
| 13.3.18. | baş barmaq daxil olmaqla, dörd barmağın olmaması və ya funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 50 | müddətsiz |
| 13.3.19. | hər iki əldə əl darağı sümükləri ilə birgə II-V barmaqların olmaması | | 85 | müddətsiz |
| 13.3.20. | bir əldə beş barmağın olmaması və ya funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 50 | müddətsiz |
| 13.3.21. | on barmağın olmaması və ya funksional yararsız vəziyyətdə ankilozu (kəskin kontrakturası) | | 100 | müddətsiz |
| 13.4. | Hər iki aşağı ətrafın istənilən səviyyədə travmatik amputasiyası | T05.3-T05.5 | | |
| | Bud-çanaq nahiyəsi və budun toxumalarının, diz və baldır nahiyəsinin, aşıq-baldır oynağı nahiyəsinin və ayağın toxumalarının nekrozlaşan donvurması | T34.6-T34.8 | | |
| | Aşağı ətrafın dəqiqləşdirilməmiş donvurması | T35.5 | | |
| | Aşağı ətrafın əzilməsinin və travmatik amputasiyanın nəticələri | T93.6 | | |
| | Bud-çanaq oynağı və bud nahiyəsinin travmatik amputasiyası | S78 | | |
| | Baldırın travmatik amputasiyası | S88 | | |
| | Aşıq-baldır oynağı və ayaq səviyyəsində travmatik amputasiya | S98 | | |
| | Koksartroz (bud-çanaq oynağının artrozu) | M16 | | |
| | Qonartroz (diz oynağının artrozu) | M17 | | |
| | Digər artrozlar | M19 | | |
| | Ətrafların digər qazanılma deformasiyaları | M21 | | |
| | Oynağın ankilozu | M24.6 | | |
| | Bud sümüyü başının yuvenil osteoxondrozu | M91.1 | | |
| | Pəncənin anadangəlmə deformasiyaları | Q66 | | |
| | Budun anadangəlmə deformasiyaları | Q65 | | |
| | Aşağı ətrafı qısaldan defektlər | Q72 | | |
| | Qiymətləndirmə | | | |
| 13.4.1. | hər iki aşağı ətrafın bud nahiyəsindən amputasiyası, protezləşməyə və ya amputasiyadan ilk bir il sonra bərpa işlərinin (o cümlədən rekonstruktiv əməliyyata ehtiyac) aparılması üçün əks-tibbi göstərişlərin olması ilə | | 100 | müddətsiz |
| 13.4.2. | bud nahiyəsindən hər iki aşağı ətrafın amputasiyası | | 90-100 | müddətsiz |
| 13.4.3. | bir aşağı ətrafın bud, digərinin baldır səviyyəsində amputasiyası, protezləşməyə və ya amputasiyadan ilk 1 il sonra bərpa işlərinin (o cümlədən rekonstruktiv əməliyyata ehtiyac) aparılması üçün əks-tibbi göstərişlərin olması ilə | | 90-100 | müddətsiz |
| 13.4.4. | bir aşağı ətrafın bud, digərinin baldır səviyyəsində amputasiyası, protezləşmədən sonra | | 85 | müddətsiz |
| 13.4.5. | bir yuxarı və bir aşağı ətrafın amputasiyası, protezləşməyə və ya amputasiyadan ilk 1 il sonra bərpa işlərinin (o cümlədən rekonstruktiv əməliyyata ehtiyac) aparılması üçün əks-tibbi göstərişlərin olması ilə | | 90-100 | müddətsiz |
| 13.4.6. | bir yuxarı və bir aşağı ətrafın amputasiyası, protezləşmədən sonra | | 85 | müddətsiz |
| 13.4.7. | ətrafın bud-çanaq oynağı səviyyəsində amputasiyası və ya budun güdülünün çox qısa olması, protezləşməyə və ya amputasiyadan ilk bir il sonra bərpa işlərinin (o cümlədən rekonstruktiv əməliyyata ehtiyac) aparılması üçün əks-tibbi göstərişlərin olması ilə | | 80 | müddətsiz |
| 13.4.8. | budun orta 1/3 səviyyəsində amputasiyası | | 70 | müddətsiz |
| 13.4.9. | budun aşağı 1/3 səviyyəsində amputasiyası, amputasiyadan 1 il sonra protezləşməyə bərpa müalicəsinə əks-göstəriş olduğu halda | | 70 | müddətsiz |
| 13.4.10. | güdülün və oynaqların yararlı vəziyyəti ilə ətrafın baldır səviyyəsində amputasiyası | | 50 | müddətsiz |
| 13.4.11. | güdülün və oynaqların yararsız vəziyyəti ilə ətrafın baldır səviyyəsində amputasiyası | | 60 | müddətsiz |
| 13.4.12. | hər iki aşağı ətrafın baldır səviyyəsində amputasiyası, protezləşmədən sonra | | 70-80 | müddətsiz |
| 13.4.13. | hər iki aşağı ətrafın baldır səviyyəsində amputasiyası, bir ətrafın funksional əlverişsiz vəziyyəti ilə | | 85-90 | müddətsiz |
| 13.4.14. | hər iki aşağı ətrafın baldır səviyyəsində amputasiyası, ikitərəfli protezləşməyə əlverişsiz vəziyyətdə | | 90-100 | müddətsiz |
| 13.4.15. | pəncənin Piroqova görə birtərəfli amputasiyası | | 45 | müddətsiz |
| 13.4.16. | pəncənin Piroqova görə ikitərəfli amputasiyası | | 75 | müddətsiz |
| 13.4.17. | pəncənin Şopar oynağı səviyyəsində ikitərəfli amputasiyası | | 70 | müddətsiz |
| 13.4.18. | pəncənin Şopar oynağı səviyyəsində birtərəfli amputasiyası | | 40 | müddətsiz |
| 13.4.19. | pəncənin Şopar oynağı səviyyəsində amputasiyası, pəncənin qüsurlu vəziyyəti ilə | | 40-50 | müddətsiz |
| 13.4.20. | pəncənin Şopar oynağı səviyyəsində amputasiyası, hər iki pəncənin qüsurlu vəziyyəti ilə | | 60 | müddətsiz |
| 13.4.21. | pəncənin Lisfrank oynağı səviyyəsində amputasiyası və ya Şarp üsulu ilə ayaq daraq sümüklərinin amputasiyası | | 35 | müddətsiz |
| 13.4.22. | pəncənin Lisfrank oynağı səviyyəsində amputasiyası və ya Şarp üsulu ilə ayaq daraq sümüklərinin amputasiyası, pəncənin birtərəfli qüsurlu vəziyyəti ilə | | 40 | müddətsiz |
| 13.4.23. | hər iki pəncənin Lisfrank oynağı səviyyəsində amputasiyası və ya Şarp üsulu ilə ayaq daraq sümüklərinin amputasiyası | | 65 | müddətsiz |
| 13.4.24. | hər iki bud-çanaq oynağının ankilozu | | 80 | müddətsiz |
| 13.4.25. | hər iki bud-çanaq oynağının hərəkətinin orta dərəcə məhdudlaşması | | 40 | müddətsiz |
| 13.4.26. | bud-çanaq oynağının hərəkətinin təzahür edən məhdudlaşması və ya ankilozu | | 50-60 | müddətsiz |
| 13.4.27. | hər iki bud-çanaq oynağının hərəkətinin təzahür edən məhdudlaşması | | 70-80 | müddətsiz |
| 13.4.28. | budun displaziyası (yarımçıxıq), tam immobilizasiya müddətinə | | 100 | 1 il |
| 13.4.29. | budun displaziyası (yarımçıxıq), tam immobilizasiya müddətinin başa çatmasından sonra müalicəsinin sonuna qədər | | 50 | 1 il |
| 13.4.30. | bud-çanaq oynağının rekonstruktiv əməliyyatdan sonrakı vəziyyəti, mülayim pozuntularla | | 40-50 | 1 il |
| 13.4.31. | hər iki bud-çanaq oynağının rekonstruktiv əməliyyatdan sonrakı vəziyyəti, təzahür edən pozuntularla | | 80 | 2 il |
| 13.4.32. | ayağın 4-7 sm qısalması | | 40 | müddətsiz |
| 13.4.33. | ayağın 7 sm-dən çox qısalması | | 50 | müddətsiz |
| 13.4.34. | bud sümüyünün psevdoartrozu, mülayim pozuntularla | | 40 | 1 il |
| 13.4.35. | bud sümüyünün psevdoartrozu, təzahür edən pozuntularla | | 60 | 1 il |
| 13.4.36. | diz oynağının funksional əlverişsiz vəziyyətdə ankilozu | | 40 | müddətsiz |
| 13.4.37. | hər iki diz oynağının funksional əlverişli vəziyyətdə ankilozu | | 50 | müddətsiz |
| 13.4.38. | hər iki diz oynağının funksional əlverişsiz vəziyyətdə ankilozu | | 70 | müddətsiz |
| 13.4.39. | pəncənin qüsurlu vəziyyətdə ankilozu | | 40 | müddətsiz |
| 13.4.40. | hər iki aşıq-baldır oynağının ankilozu | | 50 | müddətsiz |
| 13.4.41. | hər iki diz oynağı qığırdağının təzahür edən zədələnməsi (IV mərhələ qonartroz) | | 50 | 1 il |
| 13.4.42. | bud-çanaq oynağının birtərəfli çıxığı | | 40 | müddətsiz |
| 13.4.43. | bud-çanaq oynağının ikitərəfli çıxığı | | 50 | müddətsiz |
| 13.4.44. | baldır sümüklərinin psevdoartrozu: qeyri-stabil | | 40 | 1 il |
| 13.4.45. | 18 yaşınadək uşaqlarda pəncənin anadangəlmə qüsurlu vəziyyəti | | 40 | 2 il |
| 13.6.1. | kəllə sümüklərinin plastikası mümkün olmayan çatışmazlıqları (3 sm2 və daha çox) və ya kəllə sümüyünün plastikası mümkün olan geniş (30 $sm^2$-dən artıq) qüsuru | | 40 | müddətsiz |
| 13.6.2. | üzün (kəllə sümüyünün) eybəcərləşmə ilə nəticələnən sümük və dəri strukturlarının həcminə və zədələnməsinə görə çatışmazlıqları | | 40 | müddətsiz |

2.13.5. aşağıdakı məzmunda 13.1.3.3-cü, 13.2.1.2-1-ci, 13.7.4-cü yarımbəndlər və 13.8-ci bənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 13.1.3.3. | onurğanın funksiyasının ağır pozuntuları, gəzmək və oturmaq qabiliyyətinin əhəmiyyətli dərəcədə pozulması ilə | | 90 | 2 il |
| 13.2.1.2-1. | diz oynağının birtərəfli endoprotezləşməsi | | 40 | müddətsiz |
| 13.7.4. | bədənin genişhəcmli (50% dən çox) yanığından sonrakı başın, üzün, boynun, əllərin və döş qəfəsinin aradan qaldırıla bilməyən kosmetik defektləri ilə müşahidə olunan hipertrofik çapıqları | | 50 | müddətsiz |
| 13.8. | sümük və oynaq vərəminin uzaq nəticələri | B90.2 | | |
| | Qiymətləndirmə | | | |
| 13.8.1. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının mülayim dərəcədə pozulması | | 35-60 | 1 il |
| 13.8.2. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının təzahür edən dərəcədə pozulması | | 65-80 | 2 il |
| 13.8.3. | vərəmin müalicədən sonrakı gecikmiş əlamətləri, zədələnmiş orqan və sistemlərin funksiyalarının əhəmiyyətli dərəcədə geridönməz pozulması | | 85-100 | müddətsiz |

2.13.6. 13.1.4-cü və 13.1.4.1-ci yarımbəndlər ləğv edilsin;

2.13.7. 13.2.1.1-ci və 13.2.1.3-cü yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "40" rəqəmləri "50" rəqəmləri ilə əvəz edilsin;

2.13.8. 13.5.1-ci yarımbəndə aşağıdakı məzmunda on dördüncü-on doqquzuncu abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | onurğanın anadangəlmə deformasiyaları | Q67.5 | | |
| | çökmüş döş qəfəsi | Q67.6 | | |
| | qayığabənzər döş qəfəsi | Q67.7 | | |
| | Marfan sindromu | Q87.4 | | |
| | skeletin digər dəyişiklikləri ilə müşayiət olunan inkişaf qüsuru sindromları | Q87.5 | | |
| | başqa rubrikalarda təsnif olunmayan digər dəqiqləşdirilmiş anadangəlmə inkişaf qüsuru sindromları | Q87.8 | | |

2.13.9. 13.5.1.1-13.5.1.3-cü yarımbəndlər müvafiq olaraq 13.5.1.2-13.5.1.4-cü yarımbəndlər hesab olunsun və aşağıdakı məzmunda 13.5.1.1-ci yarımbənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 13.5.1.1. | nəzərəçarpan formada təzahür edən anadangəlmə inkişaf qüsurları | | 60 | müddətsiz |

2.13.10. 13.5.1.2-ci və 13.5.1.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 13.5.1.2. | döş qəfəsinin deformasiyası (skolioz; kifoskolioz III-IV mərhələ), əyilmə bucağı 650-dən çox olduqda və ya onurğanın bir neçə şöbəsini əhatə edən fəqərəarası ankilozlaşma, kəskin funksiya pozuntusu ilə | | 50-70 | müddətsiz |
| 13.5.1.3. | onurğa sütununun hərəkətinin təzahür edən məhdudluğu:<br>- yuxarı ətraf funksiyalarının təzahür edən pozuntusu: təzahür edən paraparez, əhəmiyyətli təzahür edən proksimal para parez və ya proksimal paraplegiya; təzahür edən distal paraparez yuxarı ətraflarda;<br>- aşağı ətraf funksiyalarının əhəmiyyətli pozuntusu: təzahür edən paraparez, əhəmiyyətli təzahür edən distal paraparez, distal paraplegiya və ya təzahür edən proksimal;<br>- distal paraplegiya və ya təzahür edən proksimal paraparez aşağı ətraflarda;<br>- sidiyin (8 saatda 600 ml və daha çox) və nəcisin (formalaşmış nəcisin) saxlanılmamasının ağır dərəcəsi | | 70-90 | müddətsiz |

2.14. 14-cü hissə üzrə:

2.14.1. 14.1-ci, 14.2-ci, 14.5-ci və 14.11-ci bəndlər, 14.3.1.1-14.3.1.3-cü, 14.3.2.1-14.3.2.3-cü, 14.4.2-ci, 14.4.2.1-ci,14.4.2.2-ci, 14.6.1.1-14.6.1.4-cü, 14.6.2.1-ci, 14.6.2.3-cü, 14.6.3.1-14.6.3.3-cü, 14.6.3.5-ci, 14.7.3-cü, 14.8.1-ci, 14.8.1.1-14.8.1.3-cü, 14.8.2-ci, 14.8.2.1-14.8.23-cü, 14.8.3.1-14.8.3.3-cü, 14.8.5.1-14.8.5.3-cü, 14.8.6-cı, 14.8.6.1-14.8.6.3-cü, 14.9.1.1-14.9.1.3-cü, 14.10.1-ci, 14.10.1.1-14.10.1.3-cü, 14.10.6.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 14.1. | Tənəffüs və döş qəfəsi orqanlarının bədxassəli yeni törəmələri | | | |
| 14.1.1. | burun boşluğu, orta qulağın və əlavə ciblərin bədxassəli yeni törəməsi | C30- C31 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.1.1.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.1.1.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.1.1.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.1.2. | traxeyaların, bronxların və ağciyərin bədxassəli yeni törəməsi | C33-C34 | | |
| | ürək, divararalığı və plevranın bədxassəli yeni törəməsi | C38 | | |
| | tənəffüs və döş qəfəsi orqanlarının digər və dəqiq göstərilməyən lokalizasiyalı bədxassəli yeni törəməsi | C39 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yeni törəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.1.2.1. | I mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.1.2.2. | II-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət və ya bronxial və qida borusu fistulaları, plevra empieması formasında təzahür edən fəsadlaşmalar zamanı | | 65-80 | 2 il |

*Ardı 11-ci səh.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 235

QƏRAR

Bakı şəhəri, 20 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"nda dəyişiklik edilməsi haqqında

*Əvvəli 10-cu səh.*

| | | | | |
|---|---|---|---|---|
| 14.1.2.3. | IV mərhələ residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2. | Həzm orqanlarının bədxassəli yenitörəmələri | | | |
| 14.2.1. | dodaq, ağız boşluğu və udlağın bədxassəli yenitörəmələri | C00-C14 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.1.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.2.1.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.2.1.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2.2. | qida borusunun bədxassəli yenitörəməsi | C15 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.2.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.2.2.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.2.2.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2.3. | mədənin bədxassəli yenitörəməsi | C16 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.3.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.2.3.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.2.3.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2.4. | bağırsağın bədxassəli törəməsi | C17-C21 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.4.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.2.4.2. | IIB-III mərhələ, spesifik müalicədən və ya əməliyyatdan sonrakı iliostoma kolostoması, süni arxa keçid kimi süni dəliklərə qulluq edilməsi ehtiyacı olduğu zaman | | 65-80 | 2 il |
| 14.2.4.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2.5. | qaraciyərin və qaraciyər daxili öd yollarının bədxassəli yenitörəməsi | C22 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.5.1. | I-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.2.5.2. | IV mərhələ, spesifik müalicədən sonrakı vəziyyət, residivlərin, uzaq metastazların olduğu halda | | 85-100 | müddətsiz |
| 14.2.6. | öd kisəsinin, ödçıxarıcı yolların digər və dəqiqləşdirilməmiş hissələrinin bədxassəli yenitörəməsi | C23-C24 | | |
| | həzm orqanlarının digər və dəqiq göstərilməyən bədxassəli yenitörəməsi | C26 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.6.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.2.6.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.2.6.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.2.7. | mədəaltı vəzinin bədxassəli yenitörəməsi | C25 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.2.7.1 | I-II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 70-80 | 2 il |
| 14.2.7.2 | III-IV mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 100 | müddətsiz |
| 14.3.1.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 35-60 | 2 il |
| 14.3.1.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət və ya I-III mərhələ, nefrektomiyadan sonrakı vəziyyət | | 65-80 | 5 il |
| 14.3.1.3. | lV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.3.2.1. | I mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 35-60 | 2 il |
| 14.3.2.2. | II-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət və ya I-III mərhələ, sistostomanın olması | | 65-80 | 2 il |
| 14.3.2.3. | lV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.4.2. | onurğa beyninin, kəllə sinirlərinin və mərkəzi sinir sisteminin digər şöbələrinin bədxassəli yenitörəməsi | C72 | | |
| | periferik sinirlərin və vegetativ sinir sisteminin bədxassəli yenitörəməsi | C47 | | |
| | periton və peritonarxası sahənin bədxassəli yenitörəməsi | C48 | | |
| | birləşdirici və yumşaq toxumaların digər növlərinin bədxassəli yenitörəməsi | C49 | | |
| | beyinciyin bədxassəli yenitörəməsi | C71.6 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.4.2.1. | cüzi funksional pozuntularla, törəmənin erkən mərhələdə spesifik müalicəsindən sonrakı vəziyyət | | 50 | 1 il |
| 14.4.2.2. | törəmənin radikal götürülməsinə zəmanət verilmədiyi, operativ müalicə aparılmadığı, törəmə əleyhinə müalicə aparıldığı halda | | 80 | 2 il |
| 14.5. | Qırtlağın bədxassəli yenitörəməsi | C32 | | |
| | Müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.5.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.5.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.5.3. | lV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.5.4. | törəmənin radikal götürülməsindən sonra orqanizmin funksiyalarının pozulması dərəcəsinin (cüzi, mülayim, təzahür edən, əhəmiyyətli təzahür edən), fəsadlaşmaların və (və ya) yanaşı gedən xəstəliklərin, residivinlərin, uzaq metastazların olub olmamasından asılı olaraq | | 35-100 | 2 il |
| 14.6.1.1. | I mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 50 | 2 il |
| 14.6.1.2. | II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 60 | 2 il |
| 14.6.1.3. | III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 80 | 2 il |
| 14.6.1.4. | IV mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 85-100 | müddətsiz |
| 14.6.2.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.6.2.3. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.6.3.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.6.3.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.6.3.3. | radikal götürülmədən sonra ehtiyac olduğu halda uzunmüddətli hormonal terapiya müalicəsindən sonrakı vəziyyət | | 60 | 2 il |
| 14.6.3.5. | IV mərhələ, residivlərin, uzaq metastazların olduğu halda | | 85-100 | müddətsiz |
| 14.7.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 90-100 | müddətsiz |
| 14.8.1. | uşaqlıq boynunun bədxassəli törəməsi | C53 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.8.1.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.8.1.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.8.1.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.8.2. | uşaqlıq cisminin bədxassəli yenitörəməsi | C54 | | |
| | uşaqlığın dəqiqləşdirilməmiş lokalizasiyalı bədxassəli yenitörəməsi | C55 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.8.2.1. | I-II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.8.2.2. | III-IV mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.8.2.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.8.3.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.8.3.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.8.3.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.8.5.1. | I-II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 1 il |
| 14.8.5.2. | III-IV mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.8.5.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.8.6. | vulvanın bədxassəli yenitörəməsi | C51 | | |
| | qadın cinsiyyət orqanlarının digər və dəqiqləşdirilməmiş bədxassəli yenitörəməsi | C57 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.8.6.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 1 il |
| 14.8.6.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.8.6.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.9.1.1. | I-II mərhələ limfatik düyünün zədələnməsi olmadan papillyar və ya follikulyar törəmənin spesifik müalicəsindən sonra | | 40-60 | 1 il |
| 14.9.1.2. | III mərhələ limfatik düyünün zədələnməsi ilə papillyar və ya follikulyar törəmənin spesifik müalicədən sonrakı vəziyyət | | 70-80 | 2 il |
| 14.9.1.3. | IV mərhələ qalxanabənzər vəzinin papillyar, follikulyar və modulyar xərçəngi, spesifik müalicədən, şüa, yod-terapiya və ya kimyaterapiya qəbulundan sonra, orqanizmin funksiyaları əhəmiyyətli pozulduqda,residiv, uzaq metastazlar olduğu zaman | | 85-100 | müddətsiz |
| 14.10.1. | Hoçkin limfoması (limfoqranulamotoz) | C81 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.10.1.1. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.10.1.2. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 1 il |
| 14.10.1.3. | IV mərhələ, residivlərin və uzaq metastazların olması | | 90-100 | müddətsiz |
| 14.10.6.2. | ağır dərəcədə təzahür edən pozuntularla (məsələn, ağır anemiya, təzahür edən trombositemiya, dalağın böyüməsi, qanaxmaya və (və ya) trombozlara meyillik) | | 85-100 | müddətsiz |
| 14.11. | Dərinin bədxassəli melanoması | C43 | | |
| | Dərinin digər bədxassəli yenitörəmələri | C44 | | |
| | Mezotelioma | C45 | | |
| | Kapoşi sarkoması | C46 | | |
| | Müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.11.1. | I-II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 50-60 | 2 il |
| 14.11.2. | III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 80 | 5 il |
| 14.11.3. | IV mərhələ orqanizmin funksiyalarının əhəmiyyətli dərəcədə pozulduğu, fəsadlaşmaların və (və ya) yanaşı gedən xəstəliklərin olduğu halda | | 85-100 | müddətsiz |

2.14.2. 14.3.1.4-14.3.1.8-ci, 14.8.1.4-cü, 14.8.4-cü, 14.8.4.1-ci, 14.8.4.2-ci, 14.10.1.4-cü, 14.10.3-cü, 14.10.3.1-14.10.3.3-cü yarımbəndlər ləğv edilsin;

2.14.3. 14.3.1-ci yarımbəndə aşağıdakı məzmunda üçüncü və dördüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | sidik axarının bədxassəli yenitörəməsi | C66 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.4. 14.3.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | sidik orqanlarının digər və dəqiqləşdirilməmiş bədxassəli yenitörəməsi | C68 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.5. 14.4.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci-dördüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | göz və onun əlavə aparatının bədxassəli yenitörəməsi | C69 | | |
| | beyin qişalarının bədxassəli yenitörəməsi | C70 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.6. 14.4.1.1-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "şiş" sözü "törəmə" sözü ilə əvəz edilsin;

2.14.7. 14.4.1.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununda "operativ götürülməsindən" sözləri "müalicəsindən" sözü ilə əvəz edilsin;

2.14.8. aşağıdakı məzmunda 14.4.1.3-cü, 14.4.2.3-cü, 14.4.2.4-cü, 14.6.2.4-cü, 14.7.23-cü, 14.7.24-cü, 14.8.6.4-cü, 14.8.6.5-ci, 14.10.2.3-cü, 14.10.2.4-cü, 14.10.4.3-cü, 14.10.6.1-1-ci yarımbəndlər və 14.9-1-ci, 14.12-ci bəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 14.4.1.3. | törəmənin müalicəsindən sonra orqanizmin funksiyalarının əhəmiyyətli dərəcədə pozulması, yanaşı gedən xəstəliklərin, residivin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.4.2.3. | törəmənin müalicəsindən sonra orqanizmin funksiyalarının pozulması dərəcəsinin (cüzi, mülayim, təzahür edən, əhəmiyyətli təzahür edən), fəsadlaşmaların və (və ya) yanaşı gedən xəstəliklərin, residivin, uzaq metastazların olmasından asılı olaraq | | 35-100 | 2 il |
| 14.4.2.4. | törəmənin müalicəsindən sonra orqanizmin funksiyalarının əhəmiyyətli dərəcədə pozulması, yanaşı gedən xəstəliklərin, residivin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.6.2.4. | lV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |
| 14.7.23. | I-IIA mərhələ spesifik müalicədən sonra | | 35-60 | 2 il |
| 14.7.24. | IIB-III mərhələ və ya I-III mərhələ ikitərəfli sinxron zədələnmə zamanı spesifik müalicədən sonra | | 65-80 | 2 il |
| 14.8.6.4. | vulvanın kraurozu, daha təzahür edən dərəcə (əhəmiyyətli şikayətlər, terapevtik müalicəyə məruz qalan ikincili dəyişikliklər) | | 40 | 1 il |
| 14.8.6.5. | vulvanın tam götürülməsi | | 40 | 2 il |
| 14.9-1. | Digər bədxassəli törəmələr | | | |
| | Çəngələbənzər (timus) vəzinin bədxassəli yenitörəməsi | C37 | | |
| | Böyrəküstü vəzinin bədxassəli yenitörəməsi | C74 | | |
| | Digər endokrin vəzilərin və bir-birinə mənşəcə, quruluşca yaxın strukturların bədxassəli yenitörəməsi | C75 | | |
| | Digər və dəqiq göstərilməmiş lokalizasiyalı bədxassəli yenitörəmə | C76 | | |
| | Limfa düyünlərinin ikincili və dəqiqləşdirilməmiş bədxassəli yenitörəməsi | C77 | | |
| | Tənəffüs və həzm orqanlarının ikincili bədxassəli yenitörəməsi | C78 | | |
| | Digər lokalizasiyaların ikincili bədxassəli yenitörəməsi | C79 | | |
| | Lokalizasiyası dəqiqləşdirilməyən bədxassəli yenitörəmə | C80 | | |
| | Müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.9-1.1. | I mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 50 | 2 il |
| 14.9-1.2. | II mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 60 | 2 il |
| 14.9-1.3. | III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 80 | 2 il |
| 14.9-1.4. | IV mərhələ, residivlərin və uzaq metastazların olması | | 100 | müddətsiz |
| 14.10.2.3. | müalicədən sonra tam remissiya şərtilə orqanizmin funksiyalarının mövcud pozuntularının dərəcəsindən asılı olaraq (cüzi, mülayim, təzahür edən, əhəmiyyətli təzahür edən), fəsadlaşmaların və (və ya) yanaşı gedən xəstəliklərin olmasından asılı olaraq | | 35-100 | 2 il |
| 14.10.2.4. | residiv və uzaq metastazların olması | | 100 | müddətsiz |
| 14.10.4.3. | residivlərin, orqanların funksiyalarının ağır dərəcədə pozulması halında | | 85-100 | müddətsiz |
| 14.10.6.1-1. | əhəmiyyətli təzahür edən pozuntularla (əhəmiyyətli dərəcədə anemiya, trombositemiya) | | 65-80 | 2 il |
| 14.12. | Sümüklərin və oynaq qığırdaqlarının bədxassəli yenitörəmələri | C40-C41 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |
| | Qiymətləndirmə | | | |
| 14.12.1. | I-IIA mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 40-60 | 2 il |
| 14.12.2. | IIB-III mərhələ, spesifik müalicədən sonrakı vəziyyət | | 65-80 | 2 il |
| 14.12.3. | IV mərhələ, residivlərin, uzaq metastazların olması | | 85-100 | müddətsiz |

2.14.9. 14.6.1-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | kişi cinsiyyət orqanlarının digər dəqiqləşdirilməmiş bədxassəli yenitörəməsi | C63 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.10. 14.6.2-ci, 14.6.3-cü, 14.8.3-cü, 14.8.5-ci, 14.9.1-ci, 14.10.4-cü, 14.10.5-ci, 14.10.7-ci yarımbəndlərə və 14.7-ci bəndə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.11. 14.6.2.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütunundan "2-5 il" sözləri çıxarılsın;

2.14.12. 14.6.3.4-cü yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütunundan "2-5 il" sözləri çıxarılsın və həmin yarımbənddə "residivin" sözü "residivlərin" sözü ilə əvəz edilsin;

2.14.13. 14.10.2-ci yarımbəndə aşağıdakı məzmunda beşinci-yeddinci abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | T/NK-hüceyrəli limfomanın digər dəqiqləşdirilmiş formaları | C86 | | |
| | digər immunoproliferativ xəstəliklər | C88 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

2.14.14. 14.10.2.1-ci və 14.10.4.1-ci yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması müddəti" sütununda "1 il" sözləri "2 il" sözləri ilə əvəz edilsin;

2.14.15. 14.10.4.2-ci yarımbəndin "Xəstəliklərin, zədələrin və çatışmazlıqların adları, onların ağırlıq dərəcəsi, mərhələsi, orqanizmin funksiyalarının davamlı pozulmasının kliniki funksional xüsusiyyətləri" sütununa "pozulması" sözündən sonra ", patoloji sınıqlar" sözləri əlavə edilsin;

2.14.16. 14.10.5.2-ci və 14.10.7.1-ci yarımbəndlərin "Orqanizmin funksiyalarının pozulması faizi" sütununda "100" rəqəmləri "85-100" rəqəmləri ilə əvəz edilsin;

2.14.17. 14.10.6-cı yarımbənddə ikinci və üçüncü abzaslar müvafiq olaraq beşinci və altıncı abzaslar hesab olunsun və həmin yarımbəndə aşağıdakı məzmunda ikinci-dördüncü abzaslar əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| | dəqiqləşdirilməmiş hüceyrə tipli leykoz | C95 | | |
| | limfoid, qanyaradıcı və onlara mənşəcə, quruluşca yaxın toxumaların digər və dəqiqləşdirilməmiş bədxassəli yenitörəmələri | C96 | | |
| | müstəqil (birincili) çoxlokalizasiyalı bədxassəli yenitörəmə | C97 | | |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının açılış mərasimi olub

***Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının iyulun 27-də təntənəli açılış mərasimi olub.***





AZƏRTAC xəbər verir ki, əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub.

Məktubda deyilir:

*"Hörmətli festival iştirakçıları!*

*Xanımlar və cənablar!*

*Sizi - XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının bütün iştirakçılarını və qonaqlarını ürəkdən salamlayır, festivalın işinə uğurlar diləyir, hər birinizə ən xoş arzularımı çatdırıram.*

*Əsrlər boyu mədəniyyətlərarası dialoqun inkişafına öz töhfəsini verən Azərbaycan tarixən müxtəlif millətlərin mədəniyyət və incəsənətinin qarşılıqlı zənginləşməsinə, xalqlar arasında olan birliyin daha da gücləndirilməsinə səy göstərib.*

*Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən ölkəmizdə son illər keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər Azərbaycanın təməl prinsiplərinin sülh və humanizm olduğunu bir daha sübut edərək dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələrini bir araya toplayır. Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, yaxın günlərdə baş tutmuş ənənəvi Beynəlxalq Muğam Festivalı kimi möhtəşəm tədbirlər bunun bariz nümunəsidir. Dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramları mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün geniş imkanlar açır.*

*Mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran belə layihələr bizim üçün çox dəyərlidir. Bu baxımdan, 2009-cu ildən etibarən təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı da əvəzedilməz rola malikdir. Klassik musiqi vurğunu olan hər bir insanın səbirsizliklə gözlədiyi Qəbələ Beynəlxalq Musiqi Festivalı həm də yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik və tədqiqatların mübadiləsinə xidmət edir. Biz bu festivalı mədəniyyətlərarası dialoqun genişləndirilməsinə, xalqlararası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə verilən böyük bir töhfə kimi dəyərləndiririk. Əminəm ki, XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı qonaqlarımızın yaddaşında və Azərbaycan musiqi mədəniyyəti tarixində mənalı səhifələrdən biri kimi qalacaqdır.*

*Festivalda iştirak edən hər kəsə cansağlığı, bütün yaradıcı insanlara tükənməz nailiyyətlər arzulayıram".*

Açılış mərasimində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxış edərək ölkəmizdə ənənəvi olaraq təşkil edilən Qəbələ Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu qeyd edib. Xalq artisti çıxışında builki festivalın Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edildiyini vurğulayaraq, bu yubileyin ölkəmizin ictimai-siyasi və mədəni həyatında çox böyük hadisə olduğunu bildirib.

Fərhad Bədəlbəyli deyib: "Festivalda iştirak etməkdən məmnunam. Heydər Əliyev Fonduna və Mehriban xanım Əliyevaya minnətdaram ki, belə bir mötəbər tədbirin təşkilinə dəstək nümayiş etdirir. Bu diqqət və dəstəyi festivalın bütün iştirakçıları hər gün hiss edirlər. Bu illər ərzində bu festivalda böyük ifaçılar çıxış ediblər. İnanıram ki, bundan sonra da bu musiqi bayramında bir-birindən istedadlı gənc ifaçılar çıxış edəcəklər. Bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyidir, həm də ölkəmizdə "Heydər Əliyev İli"dir. Məhz bu səbəbdən də XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Çünki Heydər Əliyev və musiqi, bu mövzuda saatlarla danışmaq olar. Festival iki proqramı - "Yeni adlar" və "Gənclərə dəstək" proqramını əhatə edir. Mədəniyyət böyük bir silahdır. Gəlin, bundan da istifadə edək".

Sonra XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı açıq elan olunub.

Azərbaycanın Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin bədii rəhbərliyi ilə təşkil olunan XIII Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı "Viva Opera" adlı konsertlə başlayıb. Açılış konsertində Əməkdar artist Əyyub Quliyevin və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlər - Xalq artistləri Dinarə Əliyeva, Əvəz Abdullayev, Samir Cəfərov, Yusif Eyvazov və Əməkdar artist Səbinə Əsədova çıxış ediblər.

Budəfəki Qəbələ Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Böyük Britaniya, Estoniya, Litva, Polşa, Rusiya və Türkiyədən dünyaşöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri iştirak edirlər.

Xatırladaq ki, 2009-cu ildən ənənəvi təşkil olunan festivalda bu dəfə də musiqisevərlər üçün maraqlı proqramlar təqdim ediləcək. Bir həftə ərzində klassik, kamera musiqisi və muğam axşamları təşkil olunacaq.

# "AzərEnerji" ilə Özbəkistan Milli Elektrik Şəbəkəsi arasında memorandum imzalanıb

**Azərbaycanda səfərdə olan Özbəkistan Milli Elektrik Şəbəkəsinin rəhbər heyəti 24 iyul tarixindən etibarən 4 gün ərzində "AzərEnerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyaları, laboratoriya, tədris və rəqəmsal idarəetmə mərkəzlərində olub, bir sıra görüşlərdə iştirak ediblər.**






Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, "AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayev və digər şəxslərlə Özbəkistan enerji sisteminin rəhbər heyətinin görüşlərində hər iki ölkənin enerji sistemləri arasında əməkdaşlıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səfərin sonunda "AzərEnerji" ASC ilə Özbəkistan Milli Elektrik Şəbəkəsi ASC arasında memorandum imzalanıb. Memorandumun məqsədi Azərbaycan enerjisisteminin təcrübəsindən faydalanmaq və hər iki ölkənin enerji sahəsində əməkdaşlığının genişləndirilməsindən ibarətdir.

Səfər çərçivəsində Özbəkistan nümayəndə heyətinə "AzərEnerji" ASC-nin elektrik stansiyaları, yarımstansiyalar, rəqəmsal idarəetmə və yeni SCADA sistemi, bu sistemlərin tətbiqi zamanı vacib olan amillər, proqram təminatı, avtomatika və digər sahələr üzrə geniş məlumatlar verilib.


## BİLDİRİŞ

"Bakı Sığorta" ASC-nin "Baş ofis"i 14.07.2023-cü il və Bakı şəhəri, Nəsimi rayonu, C.Səlimov, 15 ünvanında yerləşən struktur bölmələri 31.07.2023-cü il tarixlərdən etibarən yeni ünvanda fəaliyyət göstərəcəklər.

**"Bakı Sığorta" ASC-nin yeni ünvanı - Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 120**

***"Bakı Sığorta" ASC***



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi bir sıra təhsil müəssisələrində istilik sistemləri və elektrik təchizatı üçün avadanlıqların alınıb-quraşdırılması və peşə məktəblərində təlim stendləri üçün avadanlıqların və digər malların satın alınması məqsədilə

## *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri, tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 (doxsan) təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 01.09.2023-cü il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 11.09.2023-cü il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 12.09.2023-cü il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# Olimpiya Festivalında 7-ci medalımız

## Bu dəfə Süleyman Şükürov fərqlənib

**Sloveniyanın Maribor şəhərində Avropa Yeniyetmələri XVII Olimpiya Festivalının beşinci günündə Azərbaycan idmançıları 5 idman növündə - şose velosipedi, tennis, cüdoda, üzgüçülük və atletikada mübarizə aparıblar.**



Dünən komandamızın daha 3 cüdoçusu tatami üzərinə çıxıb və əvvəlki günlərdə olduğu kimi, bu dəfə də medal qazanılıb.

Belə ki, 81 kq çəki dərəcəsində mübarizə aparan Süleyman Şükürov fəxri kürsüdə yer alıb. İlk mərhələdən azad olan təmsilçimiz 1/8 finalda Arel Koçinskini (İsrail), növbəti mərhələdə isə Adrian Durdeviçi (Bosniya və Herseqovina) mübarizədən kənarlaşdırıb. Yarımfinalda almaniyalı Jozef İvçenkonu da üstələyən yeniyetmə cüdoçumuz finala vəsiqə qazanıb. Həlledici görüşdə rumıniyalı David Qaliqaya uduzan Süleyman Şükürov gümüş medala sahiblənib.

Komandamızın digər üzvü Hüseyn Eyvazlı (73 kq) isə ilk görüşdə məğlubiyyətlə üzləşib. Təmsilçimiz 1/16 finalda polşalı Frantişek Levandovskiyə uduzaraq mübarizəni erkən dayandırıb.

Qızlar arasında 63 kq çəki dərəcəsində qüvvəsini sınayan Kamilla Töhöliyeva da mübarizəyə 1/16 finaldan başlayıb. Cüdoçumuz ilk görüşdə ukraynalı Kristina Opanasenkoya məğlub olub. Kamilla üçüncü yer uğrunda təsəlliverici görüşə çıxsa da, bu dəfə israilli Lihi Boarona uduzub və medal uğrunda mübarizəni dayandırıb.

Beləliklə, Azərbaycan komandasının Maribor-2023-də qazandığı medalların sayı 7-yə çatıb. Bunlardan 2-si qızıl, 1-i gümüş, 4-ü büründür.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında görüləcək təmir-bərpa işlərinin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 05 iyul 2023-cü il tarixli qərarına əsasən "KM SERVİCES" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***



**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova qardaşı

**AZƏR QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5220
Sifariş 1847

Qiyməti 40 qəpik